27 yanvar 2023 №7 (1976) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri Qəzet 1991-ci ilin yanvarından çıxır

## Laçın-Xankəndi yolunun guya bağlanması barədə iddialar tamamilə yalandır



Azərbaycan ərazisində Laçın-Xankəndi yolunun guya bağlanması barədə Ermənistanın irəli sürdüyü iddialar tamamilə yalan və cəfəngdir. Rusiya sülhməramlılarının və Beynəlxalq Qırmızı Xaç Komitəsinin xətti ilə mülki təyinatlı yüklərin və mülki şəxslərin bu yolla daşınması təmin edilir.

Prezident İlham Əliyev bu fikirləri yanvarın 26-da Fransa Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Ann Buayonun etimadnaməsini qəbul edərkən sonra onunla söhbətində diqqətə çatdırıb.

səh. 2

## Təhlükəsizlik, ləyaqət, sülh yolu ilə tarixi yurda qayıtmaq



Qərbi Azərbaycan İcmasının Müşahidə şurasının yanvarın 26-da keçirilmiş iclasında "İndiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi barədə konsepsiya" – "Qərbi Azərbaycana Qayıdış Konsepsiyası" qəbul olunub.

Qərbi Azərbaycan İcması İdarə heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli bildirib ki, konsepsiya indiki Ermənistan ərazisindən zorla çıxarılmış azərbaycanlıların geriyə qayıtması üçün İcmanın həyata keçirəcəyi fəaliyyətin məqsədləri, prinsipləri, hazırlıq və icra tədbirləri üçün ümumi çərçivəni müəyyən edir. Konsepsiya beynəlxalq hüquqa, aidiyyəti dövlətdaxili hüquqa, tarixi faktlara əsaslanır, ədalətin və sülhün bərqərar olunmasına xidmət edir. Konsepsiya Qərbi Azərbaycan İcmasının bu sahədə fəaliyyətinin əsas istiqamətlərini müəyyən edən sənəddir.

İcma sədrinin müavini, Milli Məclisin deputatı Hikmət Babaoğlu bildirib ki, konsepsiya üç əsas prinsipə söykənir. Bunlardan birincisi, təhlükəsizlik, ikincisi, ləyaqət, üçüncüsü isə sülh yolu ilə Qərbi Azərbaycana qayıdışdır. "Konsepsiya beynəlxalq, humanitar və müharibə hüquqlarına, Birləşmiş Millətlər Təşkilatının qəbul etdiyi qaçqın və məcburi köçkünlərin öz ata-baba yurdlarına qayıtması hüquqlarına əsaslanır. Ona görə də konsepsiyanın qəbul olunması Qərbi Azərbaycan İcmasının fəaliyyətində yeni bir mərhələ yaradır, mübarizəmizi yeni keyfiyyət mərhələsinə daxil edir", – deyə o vurğulayıb.

davamı səh. 2-də

## Çexiya ilə diplomatik münasibətlərin 30-cu ildönümü qeyd olunub

Yanvarın 26-da Xarici İşlər Nazirliyində (XİN) Azərbaycan Respublikası və Çex Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə tədbir və sərgi keçirilib.

Xarici işlər nazirinin müavini Fariz Rzayev 30 il ərzində ölkələrimiz arasında qarşılıqlı hörmət və etimada əsaslanan səmərəli əməkdaşlıq əlaqələrinin uğurla inkişaf etdiyini, bu prosesdə yüksək səviyyəli siyasi dialoqun, rəsmi səfər mübadilələrinin, habelə parlamentlərarası əməkdaşlığın mühüm rol oynadığını vurğulayıb. Nazir müavini iki ölkə arasında iqtisadi əməkdaşlıq, habelə mədəniyyət, elm-təhsil və turizm sahələrində reallaşdırılmış intensiv mübadilələrdən danışıb.

davamı səh. 2-də

## Milli Xalça Muzeyində "Mədəni irsə yeni baxış"




səh. 5

# İslam İncəsənəti Biennalesi – ilk dəfə

### Ciddədə təşkil edilən sərgidə Azərbaycan pavilyonu da təqdim olunur

Səudiyyə Ərəbistanının Ciddə şəhərində ilk dəfə İslam İncəsənəti Biennalesi keçirilir. Yanvarın 23-də açılışı olan biennaledə Azərbaycan Milli İncəsənət Muzeyinin "İslam incəsənəti" kolleksiyası əsasında Azərbaycan pavilyonu da təqdim edilir.

Pavilyonda muzeyin kolleksiyasına məxsus Azərbaycanın qədim tarixini və zəngin mədəniyyətini özündə əks etdirən dəyərli eksponatlar – keramika, xalçaçılıq və bədii metal sənəti nümunələri, o cümlədən XVII-XVIII əsrlərə aid nadir miniatür kolleksiyası nümayiş olunur. Həmçinin XIII əsrin yeganə tam əlyazması olan Əyyuqinin "Vərqa və Gülşah" poeması və rəssam Əbdülmömin Məhəmməd əl-Xoyinin illüstrasiyalarından ilhamlanaraq yaradılan "Vərqa və Gülşa: geri dönüş" adlı multimedia instalyasiyası nümayiş etdirilir.

İslam İncəsənəti Biennalesi üç ay – aprelin 23-dək davam edəcək.

İslam incəsənətinin dünəni, bu günü və gələcəyinin mənəvi, yaradıcı və estetik ifadəsinin araşdırılmasına həsr olunmuş biennale Kral Əbdüləziz adına Beynəlxalq Hava Limanının "Həcc" terminalında 70 min kvadratmetr sahədə təşkil edilib.

"Birinci ev" mövzusunda keçirilən biennale çərçivəsində Dar əl-Əttar əl-İslamiyyə (Küveyt), Qahirə İslam İncəsənəti Muzeyi (Misir), Benaki Muzeyi (Yunanıstan), Oman Sultanlığının Milli Muzeyi, Kral Əbdüləziz Mərkəzi Dünya Mədəniyyəti (Səudiyyə Ərəbistanı), Milli İrs İnstitutu (Tunis), Qətər Milli Kitabxanası, Əhməd Baba Ali Təhsil və İslam Araşdırmaları İnstitutu (Mali), Əl-Harameyn Fondu (Səudiyyə Ərəbistanı), digər muzey və təşkilatlar tərəfindən İslam incəsənətinin zənginliyini, dünya müsəlmanları arasında mənəvi və bədii-estetik əlaqəni özündə əks etdirən pavilyonlar təqdim edilir.





## Musiqi xəzinəmizi zənginləşdirən bəstəkar

### Musa Mirzəyevin 90 illik yubileyinə həsr olunmuş konsert

Yanvarın 26-da Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında tanınmış bəstəkar, Xalq artisti, professor Musa Mirzəyevin (1933-2016) 90 illik yubileyinə həsr olunmuş konsert keçirildi.

Musiqi axşamının tamaşaçıları arasında mədəniyyət və incəsənət xadimləri, bəstəkarın ailə üzvləri, musiqisevərlər var idi.

Konsertdən öncə Əməkdar mədəniyyət işçisi, musiqişünas Səadət Təhmirazqızı bəstəkarın yaradıcılığından söz açdı. Bildirildi ki, Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında (indiki BMA) dahi Qara Qarayevin sinfində bəstəkarlıq təhsili alan Musa Mirzəyev milli musiqi mədəniyyəti xəzinəmizi zənginləşdirən çoxsaylı əsərlərin müəllifidir.



Bəstəkarın yaradıcılığında simfonik və kamera musiqisi əsərləri xüsusi yer tutur. Onun monumental "I simfoniya", "Simfonietta", simli orkestr üçün "II simfoniya", violin və simfonik orkestr üçün simfoniya-konsert, poemalar, eləcə də "Sədini oxuyarkən", "Bayram poeması", "Gənclik üçün albom", "Lənkəran əfsanəsi" fantaziyası və s. əsərləri, vokal silsilələri, mahnıları yüksək peşəkarlığının təzahürüdür. Bəstəkar 1993-cü ildən ömrünün sonunadək BMA-da peşəkar musiqiçilər nəslinin yetişməsinə töhfələr verib.

Sonra söz musiqiyə verildi.

Gecədə Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri (bədii rəhbər və baş dirijor – Xalq artisti Fəxrəddin Kərimov) çıxış etdi. Solistlər Aygün Mübariz (soprano), Çinarə Heydərova (qanun), Rövşən Əmrahov (violin), İlyas Mirzəyev (piano), Emin Eminli (tar) və Cəfər Həsənov (nağara) bəstəkarın "Üzeyir Hacıbəyliyə ithaf", "Kamera orkestri üçün simfoniya", "Yumoreska", "Bahar" romansı, "Tələbə valsı" və digər əsərlərini səsləndirdilər.

## Macarıstanla Türk dünyası arasında əlaqələr müzakirə edilib

Xəbər verdiyimiz kimi, Macarıstanın Vesprem (Veszprym) şəhəri 2023-cü ildə "Avropanın mədəniyyət paytaxtı"dır. Vesprem bu missiyanı Rumıniyanın Timişoara və Yunanıstanın Elefsina şəhərləri ilə müştərək daşıyır.

Yanvarın 21-də Vesprem şəhərində "Avropanın mədəniyyət paytaxtı" ilinin təntənəli açılış mərasimi keçirilib. Mərasimdə TÜRKSOY-un baş katibi Sultan Raev, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" olan Şuşada Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov, türk dövlətlərinin Macarıstandakı səfirləri də iştirak ediblər.

Türk Dövlətləri Təşkilatının Budapeştdəki nümayəndəliyinin rəhbəri Yanoş Hovari Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, TÜRKSOY-un baş katibi Sultan Raev və Türk dünyasını təmsil edən digər qonaqlar, eləcə də Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyənin Macarıstandakı səfirləri ilə görüşüb.



Görüşdə türk xalqlarının əsrlərlə yaratdığı mədəni irsin geniş miqyasda tanıdılmasının Türk dünyası üçün önəminə toxunulub. Türk dünyası təşkilatlarının fəaliyyətində Macarıstanın da aktiv rol oynadığı bildirilib.

Macarıstanla Türk dünyası arasında qarşılıqlı əlaqələrin inkişafına yönəlmiş mümkün layihələr haqqında müzakirələr aparılıb.

Günay Əfəndiyeva Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən Türkiyə Cümhuriyyətinin 100 illiyi münasibətilə İstanbulda təşkil etdiyi "Yıldız sarayı fotoşəkil kolleksiyasında XIX əsr Türk dünyasının mədəni irsi" sərgisinin albom-kataloqunu diplomatik nümayəndəliklərin rəhbərlərinə hədiyyə edib.

Günay Əfəndiyeva yerli "M5" mədəniyyət kanalına müsahibəsində fondun müşahidəçi üzv ölkəsi Macarıstanla münasibətlər, eləcə də ümumtürk mədəni irsinin təbliği yönündə həyata keçirilmiş layihələr haqqında danışıb.

Vyanada Fərhad Bədəlbəylinin 75 illiyi münasibətilə konsert



səh. 3

Eldar Mansurovun musiqiləri erməni ifaçılar tərəfindən mənimsənilib

Əqli Mülkiyyət Agentliyi "Youtube" administrasiyasına müraciət edəcək

səh. 4



İki fədakar ömrün birləşmə nöqtəsi

səh. 6

№7 (1976)
27 yanvar 2023
www.medeniyyet.az

## Əli Əhmədov "Şərəf" ordeni ilə təltif edilib

Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov "Şərəf" ordeni ilə təltif edilib.

Prezident İlham Əliyev yanvarın 26-da bununla bağlı sərəncam imzalayıb.

Əli Cavad oğlu Əhmədov Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına və dövlət qulluğunda səmərəli fəaliyyətinə görə təltif olunub.

Qeyd edək ki, yanvarın 27-də Əli Əhmədovun 70 yaşı tamam olur. Əli Əhmədov 2013-cü ildən Azərbaycan Respublikası Baş nazirinin müavinidir. 1999-cu ildən Yeni Azərbaycan Partiyasının icra katibi, 2005-ci ildən YAP sədrinin müavini və icra katibi olub. 2021-ci ildən partiya sədrinin müavinidir.

## Çexiya ilə diplomatik münasibətlərin 30-cu ildönümü qeyd olunub

*əvvəli səh. 1-də*




Çex Respublikasının ölkəmizdəki səfiri Milan Sedlacek 30-cu ildönümü qeyd olunan ikitərəfli əlaqələrin hazırkı səviyyəsindən məmnunluğunu ifadə edib. Növbəti ay Praqada Azərbaycan-Çexiya hökumətlərarası komissiyasının iclasının keçiriləcəyini xatırladan diplomat Azərbaycanla yalnız iqtisadi əlaqələrə təkan verilməsinə deyil, eyni zamanda mədəniyyət və turizm sahəsində də əməkdaşlığın daha da inkişafına çalışacağını bildirib.

Azərbaycanla Çexiya arasında tarixi nöqteyi-nəzərdən ortaq cəhətlərin çox olduğunu qeyd edən diplomat xalqlarımız arasında dostluğun möhkəmlənməsi üçün əlindən gələni əsirgəməyəcəyini bildirib.

Tədbirin sonunda iştirakçılar Azərbaycanla Çexiya arasında diplomatik münasibətlərin 30 illiyinə həsr edilmiş sərgi ilə tanış olublar.

## Avropa İttifaqı öz missiyasını Azərbaycanla niyə razılaşdırmır?

### Moskva Brüsselin Cənubi Qafqazda sülh məsələsində səmimi olmadığını bildirir

Əgər Brüssel səmimi qəlbdən Cənubi Qafqazda sülhün bərqərar olmasında maraqlı olsaydı, Avropa İttifaqı (Aİ) öz missiyalarının işinin şərtlərini Azərbaycanla razılaşdırardı.

Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin (XİN) Aİ-nin Ermənistan-Azərbaycan sərhədində missiya yerləşdirməsi barədə qərarı ilə bağlı bəyanatında bildirilib.

Rusiya XİN bəyan edib ki, Ermənistan-Azərbaycan sərhədində Aİ missiyasının ortaya çıxması regionda vəziyyəti kəskinləşdirəcək, özü ilə bərabər geosiyasi qarşıdurma gətirəcək. "Avropa İttifaqının nəyin bahasına olursa-olsun Ermənistanda möhkəmlənmək və Rusiya Federasiyasının vasitəçilik səylərini sıxışdırmaq cəhdləri regionda sülhə meyil edən azərbaycanlılarla ermənilərin maraqlarına zərər vuracaq", – deyə bəyanatda vurğulanır.

Rusiya XİN Ermənistanda yerləşdiriləcək Avropa İttifaqının (Aİ) mülki missiyası ilə bağlı xəbərdarlıq da edib.

Bəyanatda qeyd olunur ki, Rusiya Federasiyasının sülhməramlı kontingenti Aİ-nin müşahidəçilərinin davranışlarına "yerdəki vəziyyətin inkişafına uyğun" reaksiya verəcək.

Rusiya XİN əminliyini ifadə edib ki, yaxın gələcəkdə regionda sabitlik və təhlükəsizliyin əsas amili Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 9 (10) noyabr 2020-ci il tarixli bəyanatı əsasında yerləşdirilmiş Rusiya sülhməramlı kontingenti, habelə Ermənistan sərhədlərində xidmət edən Rusiya sərhədçiləridir.

# Laçın-Xankəndi yolunun guya bağlanması barədə iddialar tamamilə yalandır

### "Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi ərazilərdə faydalı qazıntı yataqları üzərində monitorinq təmin edilməlidir"

Azərbaycan ərazisində Laçın-Xankəndi yolunun guya bağlanması barədə Ermənistanın irəli sürdüyü iddialar tamamilə yalan və cəfəngdir. Rusiya sülhməramlılarının və Beynəlxalq Qırmızı Xaç Komitəsinin xətti ilə mülki təyinatlı yüklərin və mülki şəxslərin bu yolla daşınması təmin edilir.



Prezident İlham Əliyev bu fikirləri yanvarın 26-da Fransa Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Ann Buayonun etimadnaməsini qəbul edəndən sonra onunla söhbətində diqqətə çatdırıb.

Dövlətimizin başçısı bildirib ki, dekabrın 12-dən etibarən nəqliyyat vasitələrinin bu yol ilə hər iki istiqamətdə 1000-ə yaxın keçidi təmin olunub.

Prezident Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasının və ölkəmizin bu yataqlar üzərində daimi monitorinqinin təmin edilməsinin vacibliyini vurğulayıb.

2022-ci ildə Azərbaycanla Fransa arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd edildiyini vurğulayan dövlətimizin başçısı ötən müddət ərzində ikitərəfli əlaqələrin zəngin tarixinin olduğunu deyib.

Azərbaycan Prezidenti qarşıdakı dövrün ikitərəfli əlaqələrin inkişafı və beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimiz arasında əməkdaşlıq baxımından daha da səmərəli olacağına ümid etdiyini bildirib.

Xanım Ann Buayo Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə Azərbaycanın Prezidenti kimi ilk səfərini Fransaya etdiyini xatırladıb. O, Azərbaycanda diplomatik fəaliyyəti dövründə qarşılıqlı münasibətlərin inkişafına töhfə vermək üçün səylərini əsirgəməyəcəyini vurğulayıb.

Prezident İlham Əliyev səfirə Azərbaycandakı diplomatik fəaliyyəti dövründə uğurlar arzulayıb.

***

Qeyd edək ki, Prezident İlham Əliyev yanvarın 26-da Meksika Birləşmiş Ştatlarının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri xanım Mariya Viktoriya Romero Kabalyero və Yunanıstan Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Xristos Kapodistriasın da etimadnamələrini qəbul edib.

# Təhlükəsizlik, ləyaqət, sülh yolu ilə tarixi yurda qayıtmaq

### "Qərbi Azərbaycana Qayıdış Konsepsiyası" qəbul olunub

*əvvəli səh. 1-də*

"Qərbi Azərbaycana Qayıdış Konsepsiyası"nın əsas məqamları bunlardır:

*– İndiki Ermənistandan qovulmuş bütün azərbaycanlıların və onların törəmələrinin öz yurdlarına qayıtmaq hüququ var. Bu hüququn ləyaqətli və təhlükəsiz şəkildə reallaşmasına şərait yaradılmalı, insanlar ora qayıtdıqdan sonra onların fərdi və kollektiv hüquqları təmin olunmalıdır;*

*– Qayıdış prosesi müvafiq zəmanətləri və verifikasiya mexanizmləri olan beynəlxalq hüquqi təminat çərçivəsində baş verməlidir;*

*– Qayıdacaq insanların təhlükəsizliyini təmin etmək üçün qayıdış olacaq ərazilərə müvafiq mandatla beynəlxalq sülh missiyası yeridilməlidir. Həmin missiya İcmanın etibar etdiyi ölkələrin qüvvələrindən ibarət olmalıdır;*

*– Qayıdış prosesində qovulmadan əvvəlki məskunlaşma coğrafiyası bərpa edilməlidir. Geri qayıdanları pərakəndə səpələmək insan hüquqlarına zidd cəhd kimi rədd ediləcək.*

*– Ermənistan qayıdacaq azərbaycanlıların fərdi və kollektiv hüquqlarının təminatı üzrə beynəlxalq nəzarət və monitorinq mexanizmi çərçivəsində İcma ilə konstruktiv dialoqa başlamalıdır;*

*– Qayıdacaq azərbaycanlıların Azərbaycan ilə xüsusi bağları nəzərə alınaraq, onların Azərbaycan Respublikası ilə maneəsiz əlaqəsinə şərait yaradılmalıdır;*

*– Ermənistan hökuməti qayıdacaq azərbaycanlıların mülkiyyət hüquqlarını bərpa etməli, onların evlərini, icma torpaqlarını qaytarmalıdır;*

*– Qərbi azərbaycanlılar erməni xalqı ilə barışığa, dinc və yanaşı yaşamağa hazırdır. Ermənistan hökuməti barışığı təşviq etmək üçün səylər göstərməli, dağıdılmış Azərbaycan mədəni irsini bərpa etməli, qorumalı, həyata keçirdiyi yer adları dəyişikliklərini ləğv etməli və azərbaycanlılara qarşı ayrı-seçkilik siyasətinə son verməlidir;*

*– İcma Qərbi azərbaycanlıların legitim nümayəndəsi və maraqlı tərəf kimi qayıdış prosesi və sonrakı dövrdə bütün müvafiq proseslərdə iştirak etməlidir.*



Konsepsiyada diqqətə çatdırılır ki, Qərbi Azərbaycan İcması BMT-nin ixtisaslaşmış qurumlarının iştirakı ilə Ermənistan ərazisində azərbaycanlılara məxsus mədəni irsin vəziyyətinin dəyərləndirilməsinə, o cümlədən zərər vurulmuş və yer üzündən silinmiş mədəni irs nümunələrinin siyahısının hazırlanmasına və Ermənistan hökumətinin onları bərpa etmək və qorumaq öhdəliyini icra etməsinə nail olmaq üçün səy göstərəcək.

Həmçinin bildirilir ki, azərbaycanlı əhaliyə qarşı etnik əsaslarla genişmiqyaslı və sistematik zorakılıq səbəbindən Qərbi Azərbaycan İcması təhlükəsizlik məsələlərində Ermənistana etibar etmir. Buna görə də Qərbi azərbaycanlıların etimad göstərdiyi ölkələrin qüvvələrindən ibarət beynəlxalq təhlükəsizlik missiyasının həmin ərazilərə yerləşdirilməsini zəruri hesab edir.

Qərbi Azərbaycan İcması hesab edir ki, onun missiyası təkcə qayıdış məsələsi ilə məhdudlaşmır. İcma əhali öz vətəninə qayıtdıqdan sonra da təşkilat kimi öz fəaliyyətini, o cümlədən orada yaşayacaq azərbaycanlıların maraqları, hüquqları, inkişafı və təhlükəsizliyinin təmin edilməsi istiqamətində səylər göstərəcək. Azərbaycan Qərbi Azərbaycana qayıdacaq vətəndaşlarının təhlükəsizliyi baxımından xarici dövlətlər və beynəlxalq təşkilatlarla, eləcə də Ermənistan hökuməti və ictimaiyyəti ilə dialoq və qarşılıqlı fəaliyyətini davam etdirmək niyyətindədir.

## Kinorejissor Arif Babayevin şəxsi arxiv fondu yaradılıb



Azərbaycan Dövlət Film Fondunda Əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı, kinorejissor Arif Babayevin (1928-1983) şəxsi arxiv fondu yaradılıb.

Şəxsi arxiv fonduna görkəmli sənətkarın 200-dən çox fotosənədi, ssenariləri, diplom və fəxri fərmanları, şəxsi sənədləri, qəzet və jurnallar daxil edilib. Sənədlər Arif Babayevin qardaşı, Xalq artisti, rejissor Vasif Babayev tərəfindən təhvil verilib.

Arif Babayev "Uşaqlığın son gecəsi" (1968), "Gün keçdi" (1971), "Ömrün ilk saatı" (1973), "Alma almaya bənzər" (1975), "Arxadan vurulan zərbə" (1977), "Bizi bağışlayın" (1979), "Birisigün, gecəyarısı..." (1981) bədii filmlərinin quruluşçu rejissoru olub.

O, Azərbaycanın ilk çekistlərinin fəaliyyətinə həsr olunmuş "Birisigün, gecəyarısı…" filminə görə respublika Dövlət mükafatına layiq görülüb.

Şəxsi arxiv fondu Arif Babayevin 95 illik yubileyi münasibətilə təşkil olunub.

## Vladimir Vısotskinin 85 illiyinə həsr olunmuş musiqili-poetik gecə

Yanvarın 25-də Bakıdakı Rus Evində (RİMM) müəllif musiqisinin əfsanəsi, teatr və kino aktyoru, bir çox nəsillərin kumiri Vladimir Vısotskinin (1938-1980) 85 illiyinə həsr olunmuş musiqili-poetik gecə keçirilib.



RİMM-dən bildiriblər ki, gecədə gənc istedadlı musiqiçilər Alina Litvinova və Cavad Babayev dahi müəllifin mahnılarını ifa ediblər. Vısotski yaradıcılığını sevənlər onun şeirlərini oxuyublar.

Vladimir Vısotski şair, müğənni, peşəkar aktyor olub. "Görüş yerini dəyişmək olmaz!" çoxseriyalı televiziya filmində (1979) oynadığı Qlev Jeqlov roluna görə yaradıcı heyətlə birlikdə SSRİ Dövlət mükafatına (1987) layiq görülüb. Vısotskinin ədəbi irsinə 200-dən çox şeir, eləcə də 600-dən çox mahnı daxildir. Mahnılarının bir hissəsini o, kinofilmlər üçün yazıb.

# XİN: BMT-nin Əhali Fondunun qərəzli bəyanatı təəssüf doğurur

### "Azərbaycanın suveren ərazisi olan Laçın yolunda dinc etiraz xalqımızın legitim hüququdur"

BMT-nin Əhali Fondunun Laçın yolu ətrafında yaranmış vəziyyətlə bağlı qərəzli, həqiqəti əks etdirməyən və təşkilatın mandatına aid olmayan məsələlərlə bağlı yanvarın 24-də yaydığı bəyanatı təəccüb və təəssüf doğurur.

Bu barədə Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin BMT-nin Əhali Fondunun Laçın yolu ətrafında yaranmış vəziyyətlə əlaqədar bəyanatına dair şərhində bildirilib.

Qeyd olunub ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində 30 il ərzində öz evlərindən didərgin düşmüş, illərlə çadır şəhərciklərində, atılmış qatar vaqonlarında, düşərgələrdə heç bir sağlamlıq şəraiti olmayan mühitdə yaşamış, təhsil, səhiyyə və bütün digər hüquqlardan məhrum olmuş yüz minlərlə azərbaycanlı ailənin acınacaqlı vəziyyətinə münasibət bildirməyən BMT-nin Əhali Fondunun azərbaycanlıların legitim etirazlarına dair bəyanat verməsi qəbuledilməzdir.



Azərbaycanın təbii sərvətlərinin qanunsuz istismarının, bu sərvətlərin Ermənistana daşınması və yalnız humanitar məqsədlər üçün nəzərdə tutulmuş Laçın yolundan sui-istifadə hallarının qarşısının alınması tələbi ilə Azərbaycanın suveren ərazisi olan Laçın yolunda dinc etirazlar Azərbaycan xalqının legitim hüququdur.

Vurğulanır ki, erməni sakinlərin kompakt yaşadığı Azərbaycan ərazilərində qeyri-qanuni fəaliyyətlər Azərbaycanın milli təhlükəsizliyinə hədədir və belə qanunsuz fəaliyyətlərə son qoyulması zəruridir. Bu xüsusda, 2020-ci il 10 noyabr tarixli üçtərəfli bəyanata uyğun olaraq, Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir. Təhlükəsizlik zəmanəti, həmçinin Laçın yolundan sui-istifadənin qarşısının alınmasını ehtiva edir.

XİN-in bu mövzuda son bir ay ərzində verdiyi bəyanatlarda qeyd edildiyi kimi, Laçın yolunda nəqliyyat vasitələrinin və sakinlərin hərəkətinə etirazçılar tərəfindən heç bir maneə tətbiq edilmir və guya etirazların bölgədə "humanitar fəlakət" yaratdığı barədə iddialar əsassızdır. Azərbaycan hökuməti, həmçinin erməni sakinlərin üzləşə biləcəyi bütün humanitar ehtiyacları operativ şəkildə həll etməyə hazır olduğunu dəfələrlə bəyan edib. Bütün bunlara baxmayaraq, özlərini erməni sakinlərin "liderləri" kimi təqdim edən şəxslər öz qanunsuz fəaliyyətlərini davam etdirmək məqsədilə yerli əhalidən sipər kimi yararlanmaqda davam edir və onların hərəkət azadlığına mane olurlar.

Azərbaycan XİN BMT-nin Əhali Fondunu qərəzsiz olmağa və təşkilatın nüfuzuna xələl gətirəcək hərəkət və açıqlamalardan çəkinməyə çağırır.

# Vyanada Fərhad Bədəlbəylinin 75 illiyi münasibətilə konsert

Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzində (AMM) görkəmli musiqi xadimi, Xalq artisti Fərhad Bədəlbəylinin 75 illiyi münasibətilə yubilyarın konserti təşkil edilib.

Əvvəlcə AMM-in direktoru Leyla Qasımova yubilyarın həyat və fəaliyyəti haqqında danışıb. Qeyd edilib ki, Azərbaycanın və bütövlükdə Cənubi Qafqazın mədəniyyət mərkəzi olan Şuşa şəhəri milli incəsənət tarixində iz qoymuş görkəmli şəxsiyyətlər yetirib. Onların sırasında Bədəlbəylilər nəslinin də xüsusi yeri var. Bu nəslin nümayəndəsi Fərhad Bədəlbəyli Azərbaycanı dünyada tanıdan pianoçudur.

Diqqətə çatdırılıb ki, Fərhad Bədəlbəyli məşhur ifaçı olmaqla yanaşı, həmçinin pedaqoji fəaliyyətlə məşğul olur, 1991-ci ildən Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektorudur, Azərbaycanın mədəni-ictimai həyatında fəal rol oynayır. Qəbələ Beynəlxalq Musiqi Festivalının dünya miqyasında tanınan mədəni tədbirə çevrilməsində Fərhad Bədəlbəylinin xidməti böyükdür. Ötən il Vyana şəhərində təşkil olunmuş "Odlar Yurdunun sədaları" beynəlxalq musiqi festivalının münsiflər heyətinə fəxri sədrlik edən pianoçu Azərbaycan musiqisinin Avropada təbliği və gənc istedadların üzə çıxarılmasına töhfələr verir.



Sonra yubilyara həsr olunmuş videçarxlar nümayiş olunub.

Tədbirin bədii hissəsində Fərhad Bədəlbəyli beynəlxalq müsabiqələr laureatı Dennis Həsənov (skripka) və Mariya Şebzukova (soprano) ilə birlikdə klassik konsert proqramı təqdim edib. Konsertdə Qara Qarayev, Cövdət Hacıyev, Mixail Qlinka, Yohannes Brams və digər bəstəkarların əsərləri səsləndirilib. Fərhad Bədəlbəylinin bəstələdiyi "Ave Maria" və "Dəniz" əsərləri, Tofiq Quliyevin "Qaytağı" fortepiano pyesi xüsusi maraqla qarşılanıb.

# Holokost qurbanlarının xatirəsinə həsr olunmuş tədbir

BMT Baş Assambleyası tərəfindən 2005-ci il noyabrın 1-də qəbul olunmuş müvafiq qətnaməyə əsasən, hər il yanvarın 27-si Beynəlxalq Holokost Qurbanlarının Anım Günü (International Holocaust Remembrance Day) kimi qeyd edilir. Yəhudi xalqının müsibəti multikultural dəyərləri və tolerantlıq mühiti ilə tanınan Azərbaycanda da yad olunur.

Yanvarın 25-də Azərbaycan Dillər Universitetinin (ADİ) Multikulturalizm Mərkəzinin, İsrail və Yaxın Şərq Araşdırmalar Mərkəzinin və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin birgə təşkilatçılığı ilə Holokost qurbanlarının xatirəsinə həsr olunmuş anım tədbiri keçirilib.

ADİ-nin rektoru akademik Kamal Abdulla bildirib ki, Holokost qurbanlarının anım günü, sadəcə, insanların anım günü kimi qeyd edilmir, həmçinin onların birlik, bərabərlik, yüksəliş günüdür. Holokost qurbanları insanlıq naminə qurban getmiş insanlardır.

Qeyd olunub ki, Azərbaycan-İsrail münasibətləri bu gün düşmənlərimizin gözləri götürməyəcək qədər güclüdür. Biz bu birliyin gələcəkdə çox xeyrini görəcəyik.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov diqqətə çatdırıb ki, ölkəmizdəki yəhudilər min illərlə Azərbaycan xalqı ilə birlikdə sülh şəraitində yaşayırlar. Holokost qurbanlarının xatirəsini yad etmək üçün hər il mərkəz tərəfindən tədbirlər təşkil olunur. "Biz soyqırımından, ayrı-seçkilikdən, deportasiyadan dərs çıxararaq daha gözəl gələcəyə addım atmalıyıq", – deyə o vurğulayıb.




İsrailin ölkəmizdəki səfiri Corc Dik təəssüflə qeyd edib ki, dünyanın ayrı-ayrı yerlərində yəhudi nifrəti, antisemitizm hələ də mövcuddur. Səfir bildirib ki, Azərbaycan bütün xalqların, eləcə də yəhudilərin sülh şəraitində, heç bir problem olmadan yaşadığı ölkədir. Onun sözlərinə görə, burada hər hansı ravvin sərbəst şəkildə gəzə bilər. Onlar hətta Bakı küçələrində gəzərkən özlərini Avropa paytaxtlarından belə təhlükəsizlikdə hiss edirlər.

Tədbirdə daha sonra elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli, Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri Milix Yevdayev, Avropa Yəhudilərinin Bakı Dini İcmasının baş ravvini Şneor Seqal, Gürcü Yəhudilərinin Bakı Dini İcmasının sədri Zamir İsayev, Azərbaycandakı Alban-Udi Xristian Dini İcmasının sədri Robert Mobili və başqaları çıxış ediblər. Bildirilib ki, Holokost tarixin, sadəcə, qanlı səhifəsi deyil, eyni zamanda kimliyin insanlığın əlindən alınmasıdır.

Vurğulanıb ki, Holokost zamanı 6 milyondan çox yəhudi qırğına məruz qalıb. Onların 1,5 milyonu uşaqlar olub. Holokostun unudulmaması insanlıq üçün çox vacibdir, ən vacibi isə Holokostun tarixinin gələcək nəsillərə ötürülməsidir. Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin göstərişi ilə bu yaxınlarda İsraildə Azərbaycanın səfirliyi açılıb. Bu, İsrail-Azərbaycan əməkdaşlığının daha da yaxşılaşmasına mühüm töhfədir.

Xatırladaq ki, yəhudilərin kütləvi soyqırımı – Holokost (qədim yunancadan ingiliscəyə keçmiş "holocaust" – "hamının yandırılması") faktiki olaraq 1933-cü ildə Almaniyada Hitlerin hakimiyyətə gəlməsindən sonra başlayıb və faşistlərin 2-ci Dünya müharibəsində işğal etdiyi ölkələr də daxil 1945-ci ilədək davam edib. Yəhudilərin kütləvi şəkildə qətlə yetirildiyi ən böyük həbs düşərgələrindən biri Polşa ərazisində, Osvensim şəhəri (1939-cu ildə Polşa Almaniya tərəfindən işğal olunandan sonra Auschwitz adlandırılmışdı) yaxınlığında yaradılıb. 1940-1945-ci illərdə bu düşərgəyə müxtəlif yerlərdən köçürülən 1 milyondan çox yəhudi öldürülüb. 1945-ci il yanvarın 27-də Osvensim şəhəri Sovet Ordusu tərəfindən faşistlərdən azad edilib. Məhz bu tarix BMT tərəfindən Beynəlxalq Holokost Qurbanlarının Anım Günü kimi təsis edilib.

# Şəhid Milli Qəhrəmanın xatirəsi anılıb



Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində fəaliyyət göstərən Mərdəkan Mədəniyyət Sarayında şəhid pilot, Azərbaycanın Milli Qəhrəmanı Səfa Axundovun (1958-1992) xatirəsinə həsr olunmuş tədbir keçirilib.

Əvvəlcə Dövlət himni səsləndirilib, ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda canını fəda edən Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbirdə çıxış edənlər şəhid pilotun həyat və döyüş yolundan danışıb, onun mənalı ömrünün gənclər üçün örnək olduğunu vurğulayıblar. Bildirilib ki, I Qarabağ müharibəsi şəhidi Səfa Axundov "Mİ-8" vertolyotunun pilotu olub. 1992-ci il yanvarın 28-də Şuşaya iki uğurlu uçuş həyata keçirib. Şuşaya növbəti uçuşu zamanı düşmənin Xankəndi istiqamətindən atdığı raketlə vertolyotu partladılıb. Nəticədə üç heyət üzvü və 47 sərnişin faciəli şəkildə həlak olub. Həmin il ölümündən sonra S.Axundova "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Anım tədbirində rejissor Zülfiyyə Abdullayevanın S.Axundovun xatirəsinə həsr olunmuş "Göylərə bağlı Səfa" adlı qısametrajlı sənədli filmi nümayiş etdirilib.

# Şəhid övladları üçün Türkiyədə qış düşərgəsi

"Türkiyə Texnologiya Komandası" – T3 Fondunun təşkilatçılığı, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) dəstəyi, "YAŞAT" Fondu, həmçinin "ZƏFƏR" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin birgə tərəfdaşlığı ilə azərbaycanlı şəhid övladları üçün Türkiyənin İstanbul şəhərində qış düşərgəsi təşkil olunub.

Yanvarın 26-dan 30-dək davam edəcək düşərgəyə ötən ilin may ayında Bakıda təşkil olunmuş "Teknofest Azərbaycan"ın iştirakçısı olan şəhid övladları qatılıblar.

Bu barədə Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Layihə Mustafa Kamal Atatürkün rəhbərliyi ilə təməli qoyulan Türkiyə Cümhuriyyətinin 100 illiyi, eyni zamanda "Heydər Əliyev İli" çərçivəsində reallaşdırılır.




Düşərgə müddətində iştirakçılar Bəyoğlu Bələdiyyəsi Kefken kampında qalaraq sosial və idman fəaliyyətlərinə cəlb olunacaq, İstanbulun tarixi-mədəni yerləri ilə tanış olacaq, T3 Fondu, "Baykar" şirkəti kimi məkanları ziyarət edəcəklər.

# Kinomuzun 125 illiyi münasibətilə

## AKİ milli filmlərin nümayişini həyata keçirəcək

Azərbaycan Kinematoqrafçılar İttifaqı (AKİ) yenidən film nümayişlərinə başlayır. İttifaqdan bildirilib ki, yanvarın 31-də "Azərbaycan" kinoteatrında üç rejissorun – Aynur Kazımovanın "Unudulmuş arzular", Pərviz Həsənovun "Uşaqlıq fotosu", Elvin Aşirovun "Eviniz haradadır?" sənədli filmləri nümayiş olunacaq. Baxışdan sonra tamaşaçılarla yaradıcı heyət arasında müzakirələr aparılacaq.

AKİ-dən o da bildirilib ki, bu il Azərbaycan kinosunun 125 illiyi, "Azərbaycanfilm" kinostudiyasının 100 illiyidir və bu səbəbdən klassik milli filmlərimizin nümayiş proqramı da planlaşdırılır. Keçən il reallaşan "Dünya şedevrləri Azərbaycan dilində" proqramı da bu il davam edəcək.

Qeyd olunub ki, mütəmadi nümayişlər milli filmlərin təbliği və zövqlü tamaşaçı ordusunun formalaşması yaradıcılıq ittifaqının prioritet məqsədlərindəndir.

# "Böyük Teatr arzuları gerçəkləşdirir"

## Tələbələr Belarusun aparıcı teatrının səhnəsinə çıxacaqlar

Belarusun Böyük Teatrı 90 illik yubileyi münasibətilə maraqlı aksiyaya başlayıb. "Böyük Teatr arzuları gerçəkləşdirir" adlı aksiyada hər bir tələbə birgünlüyə teatrın səhnəsində artist olmaq imkanı qazanacaq.

Aksiya yaradıcı gənclər, istənilən universitetin tələbələri üçün nəzərdə tutulub. İstedadına güvənən tələbələr birgünlüyə bu teatrın yaradıcı heyətinin üzvü ola bilərlər. Arzusunu reallaşdırmaq istəyən gənclər bu səhnədə C.Puççininin "Bohema" operasının növbəti tamaşasında çıxış etmək şansı əldə edəcəklər. Aksiya üçün bu əsər təsadüfi seçilməyib. Çünki "Bohema" sənət həvəsli, yaradıcılığa meyil göstərən, bir yerdən başlamağa çalışan, ehtiyac içində yaşayan aktyor və şairlərin, musiqiçi və rəssamların, gənc istedadların həyatından bəhs edir.

Tələbələr öz xəyallarını gerçəkləşdirmək üçün həm də bəzi sosial şəbəkə kanallarından istifadə edərək Belarus Böyük Teatrında selfi və maraqlı videolar çəkərək bu sənət ocağının həştəqi ilə paylaşım etməlidirlər. Fevralın 7-də teatrın səhnəsinə çıxacaq beş şanslı tələbə müəyyən ediləcək.

**L.Azəri**

# Mehdiqulu xana məxsus fəxri bayraq bərpa edilib

Qarabağ xanlığının sonuncu hökmdarı Mehdiqulu xan Cavanşirə (1763-1845) məxsus fəxri bayraq Milli Azərbaycan Tarixi Muzeyində qorunur.

10 sentyabr 1806-cı ildə Rusiya imperatoru I Aleksandr "Mehdiqulu xana ali sərəncam və Qarabağ əhlinə vədlər" adlı fərman imzalayıb. Həmin fərmanda Qarabağ xanı kimi təsdiq olunan Mehdiqulu xana hakimiyyət rəmzi kimi fəxri bayraq və qılınc göndərilməsi qeyd edilmişdi. Çar tərəfindən vəd edilən bayraq bir il sonra – 1807-ci ildə Mehdiqulu xana təqdim olunub.




1822-ci ildə Qarabağ xanlığı ləğv olunanda Mehdiqulu xanın titulu saxlanılıb. 1838-ci il oktyabrın 30-da imperator I Nikolay Qarabağ xanlarının bu bayraqdan hakimiyyət rəmzi kimi istifadə etmək hüququnu təsdiq edib. Lakin 1845-ci ildə Mehdiqulu xan vəfat edəndən sonra Qarabağın idarəçiliyinin rus məmurlarına tapşırılması ilə imperiyanın bu vədi pozulub.

Sonralar adıçəkilən bayraq mühafizə olunması üçün Tiflisdəki Qafqaz Hərbi Tarix Muzeyinə təhvil verilib və ilk dəfə 1913-1917-ci illərdə ictimaiyyətə nümayiş etdirilib. Azərbaycan Xalq Cümhuriyyəti dövründə bayrağın vətənə qaytarılması istiqamətində iş aparılsa da, Cümhuriyyətin süqutu buna imkan verməyib. 1928-ci ildə Azərbaycan Tarixi Muzeyinin direktoru Davud Şərifov bayrağın qaytarılmasına nail olub.

Fəxri bayraq Rusiya imperatorlarının məhz Cavanşir sülaləsindən olan Azərbaycan xanlarının əzəli Azərbaycan ərazisi olan Qarabağın hakimləri kimi tanımalarının maddi sübutudur. Bayraq muzeyə hakimiyyət rəmzi olaraq hədiyyə edilib.

Sözügedən bayrağın sapı bərpaçı-rəssam Əjdər Qafarov tərəfindən təmizlənərək qoruyucu maddə ilə örtülüb. Eksponatın ucluq hissəsindəki qotazı isə muzeyin bərpaçı-rəssamı Qənirə Məmmədova tərəfindən demontaj edilərək üzərində olan güləbətin tikmələri, qaytanı, baftası mexaniki və kimyəvi üsulla təmizlənib. Qopan ipləri yerinə bərpa edilib, eksponata ikinci həyat verilib.

# Türk dünyasında elm sahəsində əməkdaşlıq müzakirə olunub

Xəbər verdiyimiz kimi, 2022-ci ildən Beynəlxalq Türk Akademiyasına (BTA, mənzil-qərargahı Qazaxıstanın paytaxtı Astanada yerləşir) Azərbaycandan tarix elmləri doktoru, akademik Şahin Mustafayev rəhbərlik edir. Ondan öncə BTA-nın prezidenti qazaxıstanlı alim Darhan Kıdıralı olub.

Türk dünyasında elm sahəsində əməkdaşlıq məsələləri bu günlərdə BTA-nın prezidenti Şahin Mustafayevin Qazaxıstanın elm və ali təhsil naziri Sayasat Nurbeklə görüşündə müzakirə olunub.

Görüşdə bildirilib ki, BTA-nın bu ilin martında Bişkekdə (Qırğızıstan) keçiriləcək növbəti iclasının gündəliyi işlənib hazırlanıb.

Ş.Mustafayev qardaş ölkələrin elmi təşkilatları arasında tərəfdaşlıq əlaqələrinin möhkəmləndirilməsinin vacibliyini vurğulayıb, humanitar sahədə birgə layihələrdə Qazaxıstan alimlərinin fəal iştirak edəcəklərinə əminliyini bildirib.

Sayasat Nurbek BTA-nın təşəbbüslərini dəstəklədiyini ifadə edib və quruma işlərində uğurlar arzulayıb.

Qazaxıstan nazirinə BTA-nın türkologiya üzrə nəşr etdirdiyi kitablar təqdim edilib.

# Gənc rəssamların etüdü – "Çiçəklər"

Fevralın 1-də Xətai Sənət Mərkəzində "Çiçəklər" mövzusunda etüd keçiriləcək.

Xətai Sənət Mərkəzindən verilən məlumata görə, Mədəniyyət Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqı və Azərbaycan Dövlət Rəsm Qalereyası ilə birgə təşkil edilən tədbir 2 fevral – Azərbaycan Gəncləri Gününə həsr olunacaq.




Etüddə 15-29 yaş arasında rəssamlar iştirak edə bilərlər. Texnika və ölçü sərbəstdir.

İştirak etmək istəyənlər qeydiyyat üçün yanvarın 30-dək Xətai Sənət Mərkəzinin "WhatsApp" nömrəsinə (+99451 310 74 01) ad, soyad və təvəllüdlərini qeyd etməklə müraciət edə bilərlər. Sonda iştirakçılara sertifikatlar təqdim ediləcək.

# "Zaman Art"da "Ömürdən səhifələr" davam edir

İçərişəhərdə yerləşən "Zaman Art" qalereyasında Əməkdar rəssam Eldar Qurbanovun 75 illik yubileyinə həsr olunmuş "Ömürdən səhifələr" adlı fərdi sərgisi davam edir.

Xəbər verdiyimiz kimi, yanvarın 6-da açılışı keçirilən və üç hissədən ibarət sərginin 20 Yanvar faciəsinə həsr olunan "Yüksək ruhlar" adlı ikinci ekspozisiyası artıq ziyarətçilərin ixtiyarına verilib. Ekspozisiya fevralın 1-dək nümayiş olunacaq.



Qeyd edək ki, sərgi praktikasına yenilik gətirən qalereya ilk dəfə olaraq üç ekspozisiyadan ibarət dinamik, dəyişən sərgi keçirir. Əsərlərin ekspozisiyalara bölünməsi tematik xarakter daşıyır. Layihənin ideyası işi üç fərqli mövzuya bölməkdir.

"Mələklərdən hədiyyə" adlanan ilk ekspozisiya yanvarın 19-dək davam edib. Burada avtoportretlər, uşaqlıq xatirələri ilə bağlı əsərlər, rəssamın dünyaya baxışlarını əks etdirən tablolar nümayiş olunub.

Üçüncü ekspozisiya isə "Ətir" adlanacaq və fevralın 3-dən martın 3-dək açıq olacaq. Qadın gözəlliyini əks etdirən üçüncü ekspozisiyada əsasən qadın portretləri yer alacaq.

**Lalə**

# "Heydər Əliyev İli" münasibətilə Özbəkistan kitabxanalarına nəşrlər təqdim edilib

Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) "Heydər Əliyev İli" münasibətilə Əlişir Nəvai adına Özbəkistan Milli Kitabxanasına və ölkənin vilayətlərində yerləşən 14 mərkəzi kitabxanaya Azərbaycana dair zəngin kitab kolleksiyası hədiyyə edib.




Özbəkistan Milli Kitabxanasına 40 nüsxə, Daşkənd, Xarəzm, Nəvai, Buxara, Səmərqənd, Kaşkadərya, Surxandərya, Cizzax, Sırdərya, Namanqan, Fərqanə, Əndican vilayət, Qaraqalpaqıstan Muxtar Respublikası İnformasiya-Kitabxana Mərkəzi olmaqla hər bir mərkəzi kitabxanaya 82 adda, ümumilikdə isə 1148 nüsxə kitab və elektron nəşr hədiyyə olunub.

Sözügedən kolleksiyada ölkəmizin tarixinə, dövlətçiliyinə, mədəniyyətinə dair Azərbaycan və rus dillərində kitablar, "Azərbaycanca-özbəkcə, özbəkcə-Azərbaycanca" lüğət, danışıq kitabları, dərsliklər, elektron nəşrlər, habelə AMM-in layihəsi ilə özbək dilində nəşr edilmiş ədəbi əsərlərimiz yer alıb.

Qeyd olunan kitabxanalarda həmin nəşrlərdən ibarət sərgilər təşkil olunub.

## "Zəngin adət və ənənələrimiz"



Masallı RMİ-nin tabeliyindəki Masallı Tarix-Diyarşünaslıq Muzeyində "Zəngin adət və ənənələrimiz" mövzusunda tədbir keçirilib.

Tədbirdə Ə.İsmayılov adına Yeyənkənd, Səməd Vurğun adına Türkoba kənd tam orta məktəblərinin müəllim və şagird kollektivi iştirak edib.

Muzeyin əməkdaşı Heyran Lələyeva ölkəmizdə əhalinin müxtəlif qruplarının hüquqlarının müdafiəsi, azsaylı xalqların mədəni irsinin qorunması, inkişaf etdirilməsi, həmçinin bölgənin folklor və xalq tətbiqi sənəti nümunələri haqqında məlumat verib.

Sonda tədbir iştirakçıları muzeylə ətraflı tanış olub, burada qorunan eksponatlar barədə məlumat alıblar.

## Vətən qəhrəmanları unudulmur



Şəki RMİ Şəki şəhər 2 nömrəli Uşaq musiqi məktəbinin təşkilatçılığı ilə Vətən müharibəsinin Şəkidən olan şəhidlərinin övladları və qazilərin rayon ərazisindəki "Şəki yaylası" adlı istirahət mərkəzinə ekskursiyası təşkil olunub. Ekskursiyada idarə rəisi Azər Yusubov da iştirak edib.

Şəki Şəhər M.F.Axundzadə adına Mədəniyyət Mərkəzində rejissor Elvin Nüsrətoğlunun Vətən müharibəsi şəhidi Cavidan Məmmədliyə həsr etdiyi "365-ci gün" adlı qısametrajlı sənədli filminin təqdimatı keçirilib. Mərasimdə şəhidlərin valideynləri iştirak ediblər.

***




Sumqayıt RMİ Qubadlı rayon nümayəndəliyi tərəfindən Sumqayıt şəhər Şəhidlər xiyabanında I Qarabağ müharibəsi şəhidi Balakişi Hüseynovun anım tədbiri keçirilib. Qubadlı rayon Vasili Əliyev adına Mədəniyyət evi və Mahmudlu kənd Mədəniyyət evinin hazırladığı kompozisiya təqdim edilib, şeirlər söylənilib.

# Nəsillərə örnək dahi şəxsiyyət

Regional mədəniyyət idarələrinin (RMİ) müəssisələrində "Heydər Əliyev İli" ilə bağlı tədbirlər davam edir.






**Ağstafa RMİ.** Ağstafa şəhərindəki Heydər Əliyev Mərkəzində "Böyük ömrün salnaməsi" adlı ümumrayon tədbiri keçirilib. Qonaqlar mərkəzin foyesində sərgilənən Heydər Əliyevin həyat və fəaliyyətinə həsr edilən kitablarla tanış olublar. Sonra Dövlət himni səsləndirilib, Ümummilli liderin və şəhid Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Ağstafa rayonunun icra başçısı Seymur Orucov, Ağstafa RMİ-nin rəisi Nurəddin Mehdiyev və digər çıxış edənlər Ulu öndərin mənalı ömür yolu və müasir tariximizin bütöv bir epoxasını özündə ehtiva edən genişmiqyaslı fəaliyyətindən söz açıblar.





Qazaxdakı Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə Ulu öndər irsinin təbliği məqsədilə bilik yarışı keçirilib. Rayonun orta ümumtəhsil məktəbləri arasında reallaşan yarışda 9 komanda 3 mərhələdə biliyini sınayıb. Qazax şəhər F.Şamoyev adına 4 nömrəli tam orta məktəbin komandası birinci olub. Qalib komandanın üzvlərinə diplom və hədiyyələr təqdim edilib.

***

**Şəki RMİ.** Balakən Rayon Mədəniyyət Mərkəzinin "Heydər Əliyev şəxsiyyətinin Azərbaycan tarixində rolu" layihəsi çərçivəsində Katex kənd Folklor evində "Nəsillərə örnək şəxsiyyət" başlığı altında tədbir keçirilib. Çıxış edənlər Ümummilli liderin müasir dünya tarixində parlaq iz qoymuş böyük şəxsiyyət və müdrik dövlət xadimi olduğunu vurğulayıblar.

Oğuzdakı Heydər Əliyev Mərkəzində "Heydər Əliyev azərbaycançılıq ideologiyasının banisidir" adlı tədbir keçirilib. Tədbirdə mədəniyyət işçiləri və rayonun ictimaiyyət nümayəndələri iştirak ediblər.

***

**Ağdaş RMİ.** "Heydər Əliyev İli" münasibətilə Ağdaş Rayon Mədəniyyət Mərkəzi tərəfindən "Böyük ömrün xatirələri" adlı layihə həyata keçirilir. Layihənin məqsədi Heydər Əliyevlə vaxtilə ünsiyyətdə olmuş





insanların xatirələri işığında Ulu öndəri daha yaxından tanımaq və tanıtmaqdır. Layihə üzrə Sosialist Əməyi Qəhrəmanı, Prezident təqaüdçüsü Fatma Hüseynova və görkəmli heykəltəraş, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru, Xalq rəssamı, Ulu öndərin monumental abidəsinin müəllifi akademik Ömər Eldarovun xatirələri ictimaiyyətə təqdim olunub.

***

**Masallı RMİ.** Masallı şəhərindəki Heydər Əliyev Mərkəzinə "Heydər Əliyev İli" münasibətilə məktəblilərin ekskursiyası təşkil olunub. Şagirdlərə Ulu öndərin həyat yolu və dövlətçilik fəaliyyətlərini əks etdirən fotolar və sənədlər barədə məlumat verilib.

***

**Ağcabədi RMİ.** Regional idarənin tabeliyindəki Ağdam Rayon Heydər Əliyev Mərkəzində təşkil olunan tədbirdə Ulu öndərə həsr edilmiş sənədli film nümayiş etdirilib.

***

**Gəncə RMİ.** Goranboy Rayon Mərkəzi Kitabxanasının Uşaq şöbəsi "Dahi şəxsiyyət" başlıqlı kitab sərgisi təşkil edib. Sərgidə Ümummilli liderin həyat və siyasi fəaliyyətindən bəhs edən kitablar nümayiş olunub.

Rayon Mədəniyyət Mərkəzinin Tapqaraqoyunlu kənd Mədəniyyət evində keçirilən tədbirdə də Ulu öndərin həyat və fəaliyyətindən bəhs edilib. Vurğulanıb ki, Heydər Əliyevin adı Vətənə, xalqa xidmətin nümunəsi kimi daimi yaşayacaq, Azərbaycanın gələcək nəsillərə də örnək olacaq.

***

**Sabirabad RMİ.** Saatlı Rayon Mədəniyyət Mərkəzinin Cəfərxan kənd Diyarşünaslıq evində "Heydər Əliyevin siyasi irsi Azərbaycan xalqının milli sərvətidir" mövzusunda tədbir təşkil edilib. Müstəsna xidmətləri ilə əbədilik qazanan Ümummilli lider Heydər Əliyevin mənalı həyat yolu, dövlətçilik irsi barədə məlumat verilib. Çıxışlarda ölkəmizin dünyada layiq olduğu mərtəbəyə Ulu öndərin uzaqgörənliyi, müdrikliyi və zəngin siyasi təcrübəsi sayəsində yüksəldiyi vurğulanıb.

**Hazırladı: N.Məmmədli**

## "Varlı qadın" bu dəfə Mingəçevir teatrının səhnəsinə çıxacaq




Yazıçı-dramaturq, Əməkdar incəsənət xadimi Əli Əmirlinin 1999-cu ildə yazdığı və indiyədək ölkəmizdə və xaricdə bir sıra teatrlarda tamaşaya qoyulmuş "Varlı qadın" pyesi bu dəfə Mingəçevir Dövlət Dram Teatrında səhnəyə çıxacaq.

Səhnə əsərinə Xalq artisti Valeh Kərimov quruluş verir. Bu, tanınmış aktyorun rejissor kimi Mingəçevir teatrında hazırladığı sayca 3-cü tamaşadır. Valeh Kərimov "Varlı qadın"da əsas qəhrəmanı – Sarı rolunu da oynayacaq.

Ailə-məişət mövzusunda olan, eləcə də mənəvi məsələlərə toxunan, ailənin sevgi üzərində qurulmasının vacibliyi vurğulanan komediyada təsiredici və düşündürücü dramatik stiuasiyalar da əksini tapıb.

Məşqləri davam edən tamaşada teatrın direktoru Əməkdar artist İntiqam Soltan, Əməkdar artist Şıxı Yaqubov, Könül Hacıyeva, Məlahət Ağayeva, Asim Məmmədov, Firuz Hacıyev, Nargilə Abdullayeva, Aytən İsmayılova, Paşa Salmanov, həmçinin gənc həvəskar aktyorlarımız Cavidan Abdullayev, Rəvan Adil, Aydın Quliyev, eləcə də Bakıdan dəvət edilmiş tanınmış aktyor Natiq Fərzəliyev rol alıblar.

Səhnə tərtibatını Əməkdar rəssam Rafael Həşimov verir. Tamaşa mart ayında tamaşaçılara təqdim olunacaq.

## Xalq bayramları və inanclarla bağlı kitabın təqdimatı




Təhsil İnstitutunda Elmi-pedaqoji kadrların hazırlanması şöbəsinin müdiri pedaqogika üzrə elmlər doktoru, professor Hümeyir Əhmədovun və Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktor müavini professor Xatirə Bəşirlinin "Xalq bayramları və inancların milli-mənəvi dəyərlərimizin formalaşmasında rolu" monoqrafiyasının təqdimatı olub.

İnstitutun direktoru kimya üzrə fəlsəfə doktoru Rüfət Əzizov, filologiya üzrə fəlsəfə doktoru Əsgər Quliyev, kitabın rəyçisi, professor Akif Abbasov, BDU-nun professoru Hikmət Əlizadə, Təhsil İnstitutunun baş elmi məsləhətçisi professor Vidadi Xəlilov, "Pedaqogika" jurnalının baş redaktoru professor Fərahim Sadıqov və başqa çıxış edənlər monoqrafiya ilə bağlı fikirlərini bölüşüblər.

Qeyd olunub ki, Azərbaycan türklərinin tarixən yaratdığı mədəniyyətin mühüm hissəsini xalq bayramları və inanclarımız təşkil edir. Bu da milli-mənəvi dəyərlərimizin formalaşmasında böyük rol oynayır. Kitabda dini, milli, xalq bayramlarımızdan başqa, mühüm və əlamətdar tarixləri özündə əks etdirən dövlət bayramlarımız haqqında da geniş məlumatlar verilir.

## Gəncənin tarix yadigarlarından – "Çökək hamam"



Gəncə şəhəri tarix-mədəniyyət abidələri ilə zəngindir. Şəhərdəki "Çökək hamam" da maraqlı tikililərdəndir. 1606-cı ildə memar Şeyx Bahəddinin layihəsi əsasında Səfəvi hökmdarı Şah Abbasın əmri ilə inşa edilən hamam "Şah Abbas hamamı" da adlanır.

Tarixçi Azad Bayramov deyir ki, hamamın "çökək" adlandırılması onun quruluşu ilə bağlıdır. Hamama verilən suyun təzyiqini təmin etmək üçün onu çökəkdə inşa ediblər.

Hamam odunla qızdırılıb. Zirzəmidə iki buxar qazanı yerləşir. Su Şatır arxı və Hacı Bağır kəhrizləri üstündə qurulan supaylayıcıdan götürülüb, hamamın divarlarında və döşəməsində quraşdırılan keramik borularla qızdırıldıqdan sonra, onun buxarı zallara ötürülüb. Beləliklə, həm zallar, həm də hamamın divarları isidilib.

Hamamın tikintisində o zamanın ənənəvi materiallar – qırmızı kərpic, yumurta ağı və gil-əhəngdən istifadə edilib. "Çökək hamam"ın iki böyük və bir kiçik günbəzi var. Böyük günbəzlərin qırağında ventilyator rolu oynayan yarımgünbəzlər tikilib. Onlardan ventilyasiya boruları divarların içərisindən hamama doğru ayrılır. Qışda isti, yayda isə sərin olub.

Hamamın bir giriş qapısı və tunelə oxşar yolu mövcuddur. Abidə 2013-cü ildə bərpa olunub.

## Eldar Mansurovun musiqiləri erməni ifaçılar tərəfindən mənimsənilib

### Əqli Mülkiyyət Agentliyi "Youtube" administrasiyasına müraciət edəcək

Azərbaycan folklor nümunələri ilə yanaşı, bəstəkarlarımızın mahnılarının da erməni ifaçılar tərəfindən mənimsənilməsi faktları geniş vüsət alıb.

Xalq artisti, bəstəkar Eldar Mansurov Əqli Mülkiyyət Agentliyinə müraciət edərək, bir neçə mahnısının erməni ifaçılar tərəfindən mənimsənildiyini bildirib, pozulmuş müəllif hüquqlarının bərpa olunmasına köməklik göstərilməsini xahiş edib.

Əqli Mülkiyyət Agentliyindən verilən məlumata görə, aparılmış müvafiq araşdırma nəticəsində müəyyən edilib ki, Eldar Mansurovun "Bayatılar" (1988, söz – Vahid Əziz), "O gələndə" (1988, söz – Piruz Dilənçi), "Bir payız gecəsi" (1996, söz – Bəxtiyar Vahabzadə), "Yarı səndə, yarı məndə" (1998, söz – Nüsrət Kəsəmənli) və "Gecələr keçir" (2000, söz – Vahid Əziz) əsərləri müxtəlif illərdə ayrı-ayrı erməni musiqiçilər tərəfindən mənimsənilərək "Youtube" kanalında çoxsaylı ifalar yerləşdirilib.

Bildirilir ki, bəstəkarın sözügedən mahnıları Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində qeydiyyata alınıb və müvafiq şəhadətnamə ilə dövlət reyestrinə daxil edilib.

Bununla belə, Eldar Mansurovun özünün razılığı ilə müəllifi olduğu mahnılar (xüsusilə "Bayatılar" mahnısı) müxtəlif ölkələrdə və dillərdə ifa olunub. Əcnəbi ifaçılar mahnının adını və sözlərini dəyişərək ifa etsələr də, musiqi müəllifi kimi Eldar Mansurovun adını göstəriblər.

Erməni ifaçılar tərəfindən bəstəkarın müəllif hüquqlarının pozulması faktları Əqli Mülkiyyət Agentliyi tərəfindən araşdırılıb və "Youtube" kanalında ermənilərin ifasında yerləşdirilən mahnıların Eldar Mansurovun musiqi əsərləri ilə tam olaraq üst-üstə düşdüyü müəyyən edilib. Bəstəkarın mahnılarının erməni mahnıları kimi təqdim olunması Azərbaycan və Ermənistanın iştirakçısı olduqları "Ədəbi və bədii əsərlərin qorunması haqqında" Bern konvensiyasının, Dünya Əqli Mülkiyyət Təşkilatının müəlliflik hüququna, ifalar və fonoqramlara dair müqavilələrinin müddəalarının pozulması deməkdir.

Əqli Mülkiyyət Agentliyi qeyd olunan hüquq pozuntularının aradan qaldırılması tələbi ilə "Youtube" kanalında yerləşdirilmiş mahnıların Eldar Mansurova məxsus olduğunun göstərilməsi, əks halda "Youtube"dan çıxarılması üçün həmin kanalın administrasiyasına müraciət edəcək.

# Milli Xalça Muzeyində “Mədəni irsə yeni baxış”








Azərbaycan Milli Xalça Muzeyində ilin ilk sərgisi açılıb. “Mədəni irsə yeni baxış” adlı ekspozisiya “Azərxalça” ASC, “Afffair” moda brendi və Azərbaycan Milli Xalça Muzeyinin birgə əməkdaşlığı, “PAŞA Holding”in tərəfdaşlığı ilə təşkil edilib.

Yanvarın 24-də açılışı olan sərgidə “Azərxalça” və “Afffair”in birgə yaratdığı beş müasir xalça nümunəsindən ibarət kolleksiya nümayiş olunur. Xalça kolleksiyası Azərbaycanın Vətən müharibəsində Zəfərinə həsr olunub. Kolleksiyadakı hər nümunədən biri muzeyə hədiyyə edilib.

Bu barədə məlumat verən Milli Xalça Muzeyinin direktoru Şirin Məlikova qeyd edib ki, sərginin məqsədi xalçanın xalqımız üçün əsrlərdir dəyişilməyən çox qiymətli mənəvi irs olduğunu bir daha vurğulamaq, tarixi ənənələri müasir istiqamətlərdə yaşatmaqdır.

Tədbirdə diqqətə çatdırılıb ki, tanınmış azərbaycanlı dizayner, “Afffair” brendinin yaradıcı direktoru və təsisçisi Rüfət İsmayıl yaratdığı geyim nümunələrində etnik mədəniyyəti, xalçalarımıza aid zəngin naxış elementlərini əks etdirir. O, “Sumakh” kolleksiyası üzərində işləyərkən Azərbaycan Milli Xalça Muzeyi ilə çalışıb, burada saxlanılan həm qədim, ənənəvi xalçalardan, həm də müasir peşəkar xalçaçı-rəssamların yaratdığı əsərlərdən ilhamlanıb.

Sərgidə nümayiş olunan “Naxçıvan”, “Qarabağ”, “Açma-yumma” xalçaları muzeydə qorunan eyniadlı xalçaların elementlərindən istifadə edilməklə yaradılıb. Əvvəlcə onlar “Sumakh” kolleksiyasına aid geyimlərin parçalarında əksini tapdı, daha sonra isə tekstildə istifadə olunan bu motivlər xalçaya qaytarıldı. 2020-ci ildə isə muzey maraqlı bir layihəni reallaşdırıb. İki il sürən araşdırma nəticəsində qədim ənənəyə əsaslanan, boyanmamış yundan təbii, oxra çalarlarında 5 xalça ərsəyə gətirilib. Bunlar muzeyə hədiyyə edilən nadir xalça kompozisiyalarının replikalarıdır. XVII əsrin sonu – XVIII əsrin əvvəlinə aid, Heydər Əliyev Fondu tərəfindən 2018-ci ildə muzeyə hədiyyə olunan “Naxçıvan” xalçası onlardan biri olmaqla Rüfət İsmayılı ilhamlandırıb və o da, eyni rəng çalarlarından istifadə etməklə xalçanın mərkəzi elementindən istifadə edib. Sərgidə təqdim olunan “Naxçıvan” xalçası üzərində də bu element əksini tapıb. “Ovçuluq” adlı xalça isə “Bəndi-Rumi” bədii kompozisiyası və Xalq rəssamı Eldar Mikayılzadənin yeni “Şəki xalçaları” silsiləsinə aid “Şəbəkəli” xalçası əsasında ərsəyə gəlib.

Muzeyin direktoru qeyd edib ki, Heydər Əliyev Fondunun dəstəyi ilə təqdimatı olan bu xalçalar hazırda Heydər Əliyev Mərkəzində sərgilənir. Ziyarətçilər burada dünyanın ilk xalı nümunəsi olan “Pazırık” xalçasının mərkəzi elementləri üzərində işlənmiş müasir xalça nümunəsini də görə bilərlər. Muzeyə hədiyyə olunan bu dəyərli xalçalar tezliklə kolleksiyamızda öz yerlərini tutacaq.

Milli Xalça Muzeyində “Mədəni irsə yeni baxış” sərgisi fevralın 10-dək davam edəcək.

# “Cadenza” orkestrinin növbəti konserti və saytının təqdimatı



Yanvarın 24-də Beynəlxalq Muğam Mərkəzində “Cadenza” orkestrinin “B-C-B” adlı konserti və cadenzaorchestra.com saytının təqdimatı keçirildi.

Konsert proqramında alman bəstəkarı Y.S.Bax, XX əsrin ən məşhur Amerika bəstəkarlarından J.M.Keycin fortepiano əsərləri səsləndirildi. Orkestrin müşayiəti ilə solistlər Zərif Kərimova, Günel Quliyeva və Zülfiyyə Muxtarova əsrlər boyu insanları həyəcanlandıran və düşündürən musiqinin dərin qatlarını, avanqard musiqinin qeyri-standart texnikasını musiqisevərlərə yüksək peşəkarlıqla təqdim etdilər.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti nəzdində fəaliyyət göstərən “Cadenza” orkestri (Cadenza Contemporary Orchestra) fəaliyyətini iki istiqamətdə qurur. Birinci istiqamət musiqi maarifçiliyidir. Kollektiv ölkəmizin şəhər və rayonlarında mütəmadi olaraq müxtəlif auditoriyalar üçün izahlı konsertlər təşkil etməyi, musiqi tarixinin bütün dövrlərində (renessans, barokko, klassisizm, romantizm, modernizm və postmodernizm) yazılmış əsərləri səsləndirməyi, auditoriya ilə interaktiv təmaslar qurmağı nəzərdə tutur. İkinci istiqamət Azərbaycanda müasir musiqi ifaçılığı və çağdaş dünya musiqisi ilə təmaslar qurmaq ənənəsini yaşatmaqdan ibarətdir.

**Lalə**

# “Xocavənddəki tarı gətirə bilmədim...”

## Qazi xanəndə Vətən müharibəsindəki döyüş yolundan danışır





44 günlük haqq savaşımızda minlərlə igid Vətən oğlu şəhadətə yüksəldi, yaralanıb qazi adını aldı. Onların qəhrəmanlığı, fədakarlığı sayəsində otuzillik işğal başa çatdı, ərazi bütövlüyümüz bərpa olundu. Müharibə zamanı yumruq kimi birləşən xalqımız dünyaya göstərdi ki, məqamı gələndə, mövzu Vətən olunca hər kəs əsgərə çevrilir.

Həqiqətən də, ərazi bütövlüyümüzün bərpası uğrunda müxtəlif peşə sahibləri, o cümlədən mədəniyyət və incəsənət sahəsində fəaliyyət göstərənlər də düşmən üzərinə yeridilər. Onların sırasında da şəhadətə yetənlər, sağlamlığını itirənlər oldu...

### Toğrulun tarı...

Vətən müharibəsindən keçən iki il müddətində bir sıra tədbirlərdə qazi bəstəkar, qazi mədəniyyət işçiləri ilə mütəmadi olaraq rastlaşırıq. Diqqətimi çəkən məqamlardan biri də “Çıxış edir Vətən müharibəsi qazisi, xanəndə Məbud Əhmədov” təqdimatı oldu. Məbud özü haqqında danışmağı sevməsə də, tədbirlərin birində, döyüş yolu haqqında qısa məlumat ala bildik. Məbud Əhmədov o qəhrəmanımızdır ki, Vətən müharibəsində yaralanmış, cərrahi əməliyyat masasında ifa etdiyi “Qarabağ” mahnısı ilə sorağı bütün ölkəyə yayılmışdı...

Məbud Əhmədov 1996-cı il noyabrın 9-da paytaxtın Qaradağ rayonunun Lökbatan qəsəbəsində anadan olub. İlk musiqi təhsilini Cabbar Qaryağdıoğlu adına Musiqi məktəbində alıb. Daha sonra Milli Konservatoriyada oxuyub. Burada magistr təhsili də alıb, Xalq artisti, görkəmli muğam ustadı Arif Babayevdən sənətin sirlərini öyrənib.

O, təhsilini başa vurub hərbi xidmətə yola düşür. Xidmət müddətində komandir heyəti Məbudun xanəndə olduğunu bildikdə vaxtilə onunla bir təhsil ocağında oxumuş əsgərə – tarzən Toğrul Hacıyevə tarını hərbi hissəyə gətirməsini xahiş edirlər. Beləliklə, bazar günləri əsgərlər üçün konsertlər təşkil olunur.

Altı ayın əsgəri olan Məbudun döyüş yolu Füzuli rayonunun Horadiz qəsəbəsi istiqamətindən başlanır. Burada döyüşçü yoldaşlarından bir neçəsini itirir. Milli Konservatoriyanın tələbəsi, tarzən Toğrul Hacıyev də orada şəhid olur. Məbud deyir ki, Toğrulun atası da I Qarabağ müharibəsində Horadizdə döyüşmüş qazi idi və qismətdən oğlu atasının yaralandığı yerdə şəhid oldu.

39 gün düşmənə qarşı vuruşan qazinin döyüş yolu Xocavəndin Zoğalbulaq kəndinə kimi davam edir: “Hər bir şəraitlə üzləşirdik. Ac da qalırdıq, susuz da. Füzulidə təminat maşınımızı gözümüzün qarşısında vurdular. Tapşırıq gəldi ki, düşmənin yerləşdiyi həmin mövqeni tutmaq lazımdır. Bu tapşırığı canla-başla yerinə yetirib mövqeni ələ keçirdik. Amma yenə də dostlarımızdan şəhadətə yüksələnlər oldu”.

### “Arzumuz Qarabağ torpağında “Qarabağ şikəstəsi”ni oxumaq idi”

Cəbrayıldakı döyüş yolundan danışan qazi duman içində qarşıdakı təpəliyin arxasında ermənilərlə üz-üzə dayanmalarından söz açır, zabit və əsgərlərimizin necə rəşadətlə, peşəkarcasına vuruşmasından danışır. Deyir ki, biz irəlilədikcə düşmən silahını qoyub qaçırdı: “Bəzən hətta sursata ehtiyacımız olmurdu. Düşmənin qoyub qaçdığı sursatları özlərinə qarşı istifadə edirdik. Mən tank əleyhinə minaatan silahından istifadə edirdim. Ən qızğın döyüşlərimiz Füzuli və Xocavənd istiqamətində oldu. Füzulinin Pirəhmədli kəndində bölüyümüz düşmənin bir tankını ələ keçirdi”.

Məbud Əhmədov bildirir ki, bizim düşməndən həm də fərqimiz onda idi ki, yaralı və şəhidlərimizi döyüş meydanında qoymurduq: “Həmin o çətin məqamlarda bir-birimizin qədrini, insan həyatının nə qədər qiymətli olduğunu bilməyə başladıq. İrəlilədikcə təminatımız gecikirdi. Çünki düşmən yolu vururdu. Bəzən olurdu ki, yarım litr suyu 30-40 nəfərlə bölüşürdük. Əsas amalımız şəhidlərimizin qisasını və torpaqlarımızı geri almaq idi. Cəbrayıl istiqamətində döyüşə gedəndə tabor komandirimiz tabor üçün marş sözləri yazmışdı, mən də musiqi bəstələdim. Biz hücuma keçəndə həmin sözləri “Çahargah” muğamı üstündə oxudum. Çünki “Çahargah” daha təntənəli və döyüş əzmli muğamdır. Döyüşə böyük ruh yüksəkliyi ilə gedirdik və hər döyüşümüz də uğurla nəticələnirdi. Harada olurduqsa, komandir məni oxutdururdu. Müharibəyə qədər bütün xanəndə və musiqiçilərin arzusu idi ki, Qarabağ torpağında “Qarabağ şikəstəsi”ni ifa etsinlər. Şükür Allaha ki, o torpaqda “Qarabağ şikəstəsi”ni səsləndirənlərdən biri də mən oldum”.

Müsahibim bu yerdə bir maraqlı xatirəsini dilə gətirir: “Xocavənddə idik. 3-4 gün orada qalmalı olduq. Bir evdə qalmağı məsləhət bildilər. Evə girib otaqları gəzəndə milli tar alətini gördüm. Həmin an Toğrulu xatırladım. Tarı döyüşdən xatirə kimi götürdüm. Amma elə həmin Zoğalbulaq kəndində yaralandım və tarı gətirmək qismət olmadı”.

### Cərrahi əməliyyat masasında ifa...

Qazi xanəndə iki dəfə – oktyabrın 19-u və noyabrın 3-də yaralandığını deyir: “Kəllə-beyin travması almış, qolum, ayağımın arxası və barmaqlarım sınmışdı. Hadrut qəsəbəsində ilkin tibbi yardım aldıqdan sonra məni gecə Füzuli Rayon Diaqnostika Mərkəzinə gətirmişdilər. Dəyərli həkim Oqtay Mehdiyev cərrahi əməliyyat masasında soruşdu ki, əsgərlikdən öncə nə işlə məşğul olmusan? Dedim ki, xanəndəyəm. Dedi bir mahnı oxu. Mən də “Qarabağ” mahnısını oxudum. Səhəri gördüm ki, xəstəxanada hər kəs məndən danışır. Evdəkilər buna qədər yaralandığımı bilmirdilər”.

44 günlük savaş başa çatdıqdan sonra dövlət başçısının müvafiq sərəncamları ilə Füzuli, Xocavənd və Cəbrayılın azad olunmasına görə medallarla təltif edildiyini bildirən Məbud Əhmədov müharibədə iştirakının Vətən qarşısında bir borc olduğunu vurğulayır: “Vətəni dar günündə müdafiə etməli idik. Allah Vətən yolunda canını fəda etmiş bütün şəhidlərimizə rəhmət eləsin. Qazilərimizə şəfa diləyirəm. Məhz onların canı, qanı bahasına, Ali Baş Komandanın düzgün siyasəti nəticəsində torpaqlarımız işğaldan azad olundu”.

Bu gün Məbud tez-tez tədbirlərə, televiziya verilişlərinə dəvət alır. Öz məlahətli səsi ilə sevimli peşəsini davam etdirməklə yanaşı, həm də keçdiyi döyüş yolundan fəxrlə danışır...

**L.Azəri**

“Heydər Əliyev İli”

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları “Heydər Əliyev İli”nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (7)

### 1973-cü il 29 may

Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev Azərbaycan SSR-ə Sov. İKP MK-nın, SSRİ Nazirlər Sovetinin, ÜİHİMŞ-nin (Ümumittifaq Həmkarlar İttifaqları Mərkəzi Şurası) və ÜİLKGİ-nin (Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqı) növbəti keçici Qırmızı Bayrağının təqdim edilməsi münasibətilə təşkil olunan yığıncaqda nitq söyləyib, respublikada digər sahələrlə bərabər mədəni-maarif işindən də bəhs edib.

### 1973-cü il 13-14 sentyabr

Azərbaycanın böyük mütəfəkkir şairi İmadəddin Nəsiminin anadan olmasının 600 illiyi münasibətilə Bakıda təntənəli mərasimlər keçirilib. Respublikanın rəhbəri Heydər Əliyevin təşəbbüsü və SSRİ-nin aidiyyəti qurumlarının təqdimatı ilə Nəsiminin 600 illiyi 1973-cü ildə UNESCO-nun yubileylər siyahısına salınmışdı. Bakıdakı yubiley tədbirlərinə müxtəlif ölkələrdən qonaqlar qatılmışdı. Heydər Əliyev tədbirlərdə çıxış edib. Nəsiminin 600 illiyi şərəfinə Azərbaycan SSR Nazirlər Sovetinin təşkil etdiyi qəbulda (14 sentyabr) nitqindən:

*“...Bu günlər qədim Azərbaycan torpağında böyük bayramdır, poeziya bayramı, ədəbiyyat bayramı, bədii söz bayramıdır, ürəklərə sevinc bəxş edən sənət bayramıdır. Bu bayram böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 600 illiyi ilə əlaqədardır.*

*Öz nəsillərinə gözəl bir irs qoyub getmiş bu müdrik insanın anadan olduğu vaxtdan 600 il keçmişdir. Budur, indi onun vətənində nəsillər şairin fərəhli yubileyini dərin minnətdarlıq hissi ilə qeyd edirlər. Bəşəriyyət özünün ən yaxşı nümayəndələrini, onu mənəvi cəhətdən zənginləşdirən simaları həmişə yüksək qiymətləndirmişdir. Bəşər tarixinin müxtəlif mərhələlərində bir çox görkəmli şəxsiyyətlər yetişmişdir. Hər bir xalq həmin dühaların tərəqqiyə, işıqlı həyata, xoş güzərana çağırışları ilə haqlı fəxr edir. Azərbaycan xalqı öz böyük övladlarının – Nizaminin, Xaqaninin, Füzulinin və başqalarının adlarını iftixarla çəkir. Bu gün isə biz Azərbaycan və dünya poeziyasının parlaq ulduzu İmadəddin Nəsiminin yubileyini qeyd edirik.*

*Lakin Nəsiminin yaratdığı, qoyub getdiyi irsə heyran olduğumuzu bildirərkən biz gərək onun ikinci yaranışından da danışaq. Yalnız bizim zəmanədə Nəsimi əsrlərin dərinliklərindən qaldırılmışdır və o, layiqincə qiymətləndirilir. Bu gün Nəsimi bütün dünya qarşısında bütün əzəməti ilə ucalır. O, elə bir insan idi ki, hələ uzaq keçmişlərdə cəhalətpərəstlərdən qorxmayıb zülmə, riyakarlığa, dini mövhumata etiraz səsini ucaldır, çox-çox irəliyə nəzər salırdı. Görkəmli Azərbaycan şairi, müasirimiz Səməd Vurğun Nəsimi haqqında belə demişdir: “Tarixlər boyunca qaldı yadigar ölməz fikirlərin, ölməz sözlərin”.*

*Nəsiminin yubileyi Azərbaycan xalqının, eləcə də bütün xalqların mədəniyyətinin tərəqqisinə daha bir parlaq sübutdur. Bütün müttəfiq respublikaların nümayəndələrinin iştirakı ilə keçirilən Nəsimi yubileyinin belə geniş miqyasda qeyd edilməsi də hər bir xalqın mədəniyyətinin inkişafına partiyanın göstərdiyi qayğının təzahürlərindən biridir, ölkəmizin xalqları arasında dostluğun nümayişidir...*

*Bizim hamımızı, Nəsimi yubileyi münasibətilə Azərbaycan torpağına toplaşan adamların hamısını mütərəqqi ideallar, bəşəriyyətin ən yaxşı zəkalarının əsrlər boyu həsrətində olduqları əmin-amanlıq və dostluq şəraitində yaşamaq arzuları birləşdirir. Həmin ideallar və arzular bu gün gerçəkliyə çevrilmişdir...”.*

### 1973-cü il 31 oktyabr

Heydər Əliyev İkinci Dünya müharibəsində Qafqaz uğrunda döyüşlərin 30 illiyi münasibətilə təntənəli yığıncaqda nitq söyləyib, faşizm üzərində tarixi qələbənin əldə olunması üçün Azərbaycanın oğul və qızlarının ön və arxa cəbhədə göstərdiyi qəhrəmanlıq və fədakarlıqdan, o cümlədən yaradıcı insanların müharibə dövründə vətənpərvərlik ruhlu fəaliyyətindən bəhs edib.

***

Azərbaycanın görkəmlı mədəniyyət, ədəbiyyat xadimlərinin yaradıcılığı həm respublika, həm də ittifaq (SSRİ) səviyyəsində dövlət tərəfindən yüksək qiymətləndirilirdi.

### 1973-cü il 23 aprel

Azərbaycan sovet teatr sənəti sahəsində xidmətlərinə görə və anadan olmasının 60 illiyi ilə əlaqədar olaraq respublikanın Xalq artisti Əli Zeynalov Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı ilə təltif edilib.

### 1973-cü il 28 iyun

Sovet ədəbiyyatı sahəsində xidmətlərinə görə və anadan olmasının 60 illiyi ilə əlaqədar olaraq şairə Nigar Rəfibəyli Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı ilə təltif edilib.

### 1973-cü il 26 iyul

SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə sovet musiqi sənətinin inkişafinda böyük nailiyyətlərinə görə bəstəkar Soltan Hacıbəyova “SSRİ Xalq artisti” fəxri adı verilib.

### 1973-cü il 12 oktyabr

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Azərbaycan sovet təsviri sənətinin inkişafında böyük xidmətlərinə görə Qəzənfər Xalıqova respublikanın “Xalq rəssamı” fəxri adı verilib.

**Hazırladı: V.Orxan**

***(davamı var)***

№7 (1976)
27 yanvar 2023
www.medeniyyet.az

Həmidə Cavanşir-Məmmədquluzadə – 150

# İki fədakar ömrün birləşmə nöqtəsi – xəlqi amal



Böyük Mirzə Cəlilin Bakıdakı mənzil-muzeyində bir neçə dəfə olmuşam. İlin hansı fəslində getməyimdən asılı olmayaraq, hər o evin kandarından keçib əsas otağa – Mirzənin iş masasının olduğu yerdə dayananda canıma bir üşütmə gəlir. Tez qanrılıb qəzəbdən əlyazmalarını yandırdığı soba tərəfə baxıram...

Bu məkana hər gəlişimdə iki hissin arasında qalıram: görəsən, Mirzə Cəlil ilə ömür-gün yoldaşı Həmidə xanım Cavanşir (Məmmədquluzadə) bu yuvada xoşbəxt olublar, yoxsa...

Həmən bu hissi də başımdan qovub keçirəm evin ən yuxarı hissəsindəki kiçik otağa – Həmidə xanımın "Molla Nəsrəddin" məcmuəsinin çap olunduğu otaqdan bir göz oyandakı məkanına. Burada özümə təsəlli verirəm: yox, bu adamlar böyük millət, xalq sevdalısı idilər və sözsüz ki, bütün ali duyğularının fövqündə elə çox sevdikləri xalqa məhəbbət və bu məhəbbətdən doğan yanğı dayanırdı.

Mənzil-muzeyə budəfəki gəlişimin başqa bir səbəbi vardı: Həmidə xanım Cavanşir-Məmmədquluzadənin 150 illik yubileyi.

"Mirzə Cəlil ocağında xoş gördük sizi. Hər yeni qonaq bizi, bizdən də çox, mənə elə gəlir ki, bu evin divarlarını, əşyalarını, burada dolaşan ruhları sevindirir. Sözsüz ki, əsas səbəbi bu ocağın təkcə bir ailəyə yox, az qala bütün millət sevdalılarına yuva olmasıdır", – deyir həmişəki məhrəm təbəssümü ilə bizi qarşılayan muzeyin direktor əvəzi Yeganə Məmmədova.

Onunla yenə ekspozisiya zallarını, böyük bir ailənin yaşadığı otaqları dolaşırıq. Yeganə xanımdan muzeylə tanışlığa Həmidə xanımın otağı ilə başlamağı xahiş edirəm. İstəyirəm ev sahibəsinin "nəzarəti" ilə dolaşım buraları.

Otağına keçirik. Sadə tərtibatlı kiçik otaqda onu andıran, ona aid və onun nizamı ilə düzülmüş məhdud əşya içərisindən həm də tibb çantası kimi istifadə etdiyi qadın çantası və yaxşı tikiş qabiliyyətinin göstəricisi olan tikiş maşını diqqətimi cəlb edir.

Məlumat üçün deyim ki, Həmidə xanım Cavanşir 1873-cü il yanvarın 19-da Şuşa qəzasının Kəhrizli kəndində dünyaya gəlib. Atası Əhməd bəy Cavanşir görkəmli maarifçi, tarixçi olub. Atası deyirdi: "Mənim qızım elə olmalıdır ki, biz kişilər ölüb getsək, bizi şərəflə əvəz edə bilsin". Qızını kişi qeyrətli görmək istəyən Əhməd bəy onun mükəmməl təhsil almasına çalışıb. Atasının sayəsində Həmidə xanım hələ yeniyetmə yaşlarından rus dilini öyrənib, yüksək intellektə, geniş dünyagörüşünə malik olub.

Əhməd bəyin vəfatından sonra Həmidə xanım Qarabağın Kəhrizli kəndində ata mülkünü idarə edib. O, nəinki Kəhrizli kəndinin, hətta bütün Qarabağın ona pənah gətirən insanlarından kömək əlini heç vaxt əsirgəməyib. Aclıq və qıtlıq illərində Həmidə xanım Qarabağ əhalisinə əl uzadar, onlara yardım edərdi. O, Tiflis Müsəlman Qadınları Xeyriyyə Cəmiyyətinin yaradıcılarından və ən fəal üzvlərindən olub...

Bayaqdan Həmidə xanım haqqında məlumatları diqqətə çatdıran Y.Məmmədova bütün ekspozisiyalarda onu unutmadıqlarını, Mirzə Cəlillə çiyin-çiyinə xalqı üçün çalışan xanımı sevgiylə, ehtiram ilə yad etdiklərini deyir: "1905-ci ildən artıq Mirzə Cəlilin həyatında Həmidə xanım vardı. Onlar Tiflisdə tanış olublar və sonra Mirzə Cəlil ona evlilik təklif edir. O da gedib bunu yaxın qohumları ilə məsləhətləşir. Onun Mirzə Cəlillə evlənməsinə etiraz edənlər çox olur. Amma atasının həkim olan qohumu bu evliliyin təkcə iki insanın yox, ümumilikdə toplumun, xüsusən Həmidə xanımın həyatını tamam dəyişəcəyini deyir və razılıq verir. Üstəlik, xaraktercə məğrur, ötkəm qadına bu evliliyin heç də asan olmayacağını, Cəlillə keçə biləcəyi çətinliklərin olacağını da xatırladır. 1907-ci ildə "Molla Nəsrəddin" jurnalında erməni və müsəlman (Azərbaycan) qadınlarına xitab olan bir felyeton dərc edilir. Həmidə xanım Ağcabədidə bu materialı oxuyur və anlayır ki, evlilik üçün seçimi məhz o olmalıdır. Beləcə, iki ilə xanımı yola gətirə bilməyən Mirzə onu bir felyetonu ilə ovsunlaya bilir".

Evlənərkən hər ikisi həm həyatları, həm də ömür yaşları əsl məntiq, duyğulardan çox ağıl ilə verilən qərar mərhələsində idi.







Bu izdivacdan Midhəd və Ənvər adında iki oğulları olsa da, əvvəlki evliliklərindən də oğul və qızları var idi. Beləcə, toplamda 6 uşaqla xoşbəxt bir ailə başçısı olmaq, bütün çətinliklərə rəğmən təkcə özü üçün deyil, xalq üçün yaşamaq və sözün bütün mənalarında, çarpışmaq Məmmədquluzadələrin boyuna biçilmişdi.

Həmidə xanımı həmvətənlərinin maarifdən kənarda qalması hər zaman narahat edib. O, atasının ən böyük arzusunu gerçəkləşdirmək üçün doğma kəndi Kəhrizlidə xüsusi bina tikdirərək məktəb açıb. Mirzə Cəlil də həyat yoldaşının bu fəaliyyətini bəyənərək məktəbin avadanlıqla təmin olunmasında yaxından iştirak edib. Ümumiyyətlə, Mirzə Cəlil-Həmidə xanım cütlüyü nəsillərə nümunə ola biləcək bir ailə olub. Tale həyat yollarını birləşdirənəcən onları çətin sınaqlardan keçirmişdi. Unudulmaz ədiblə 25 illik birgə həyatları boyu bütün varidatını, sərvətini həm də Mirzə Cəlilin yaradıcılığına sərf edən Həmidə xanım böyük ədibin ağır və xoş günlərinin şəriki, əsl silahdaşı, fədakar, dözümlü, mübariz dostu olub.

Yeganə xanım ağır sınaqların daim onları müşayiət etdiyini, buna rəğmən hər ikisinin nikbinlik və mübarizliyi sayəsində bu sınaqlara sinə gərə bildiklərini deyir: "Bu illər ərzində Cəlil Məmmədquluzadə kəskin ittihamlara, iftiralara, təzyiqlərə məruz qalıb. Həmidə xanım ona mənəvi dayaq olaraq çalışıb ki, Mirzə Cəlili nikbin ovqata kökləsin, onun ağır sınaqlardan mətanətlə çıxmasına yardım göstərə bilsin. O, Mirzə Cəlili sevdi, millətini xurafatdan, nadanlıqdan xilas etmək üçün bu ziyalı ilə əl-ələ verərək çox xeyirxah, nəcib işlərə imza atdı".

***

Gözüm otaqdakı böyük aynanın yanından asılan gözəl qız fotosuna sataşır. Mina Davatdarovanın, Həmidə xanımın ilk nikahından olan, 25 yaşında xəstəliyi ilə barışa bilməyib intihar edən gözəl qızının fotosu məni valeh edir. Bu zərif fotonun "çağırışı" ilə divardakı xoşbəxt ailə rəsmləri – 6 uşaqlı böyük ailənin müxtəlif zamanlarda Şuşada, Tiflisdə, Ağcabədidə, Bakıda çəkdirdikləri şəkillər diqqətimi cəlb edir. Burada həmçinin evin sahibəsi ilə bağlı müxtəlif sənədlərin surətlərini görürük.

Dəbdəbədən uzaq, sadə həyat sürən Həmidə xanımın şəxsi əşyaları arasından ötüb yan zala – qonaq otağına keçirik. Burada hər şey onu xatırladır. Yeganə xanım deyir ki, bu otağa sırf onun zövqünə uyğun tərtibat verilib. Ağcabədidən xatirə olaraq çaydanını və çırağını da özü ilə gətirən Həmidə xanım ömrü boyu yurduna, el-obasına, doğma Ağcabədisinə sadiq olub: "Görkəmli tədqiqatçı, salnaməçi Qulam Məmmədli bu evdə çox olub və otaqların quruluşu haqqında məlumatları da bizə o verib. Çünki o, bu evə, ailəyə çox yaxın olub".

Tibbə maraq göstərən Həmidə xanımın əşyaları arasında bu sahəyə aid nümunələr də var. Bu məqam da Mirzə Cəlillə bağlıdır. Belə ki, o, Həmidə xanıma Moskvadan aldığı xalq təbabəti ilə bağlı bir kitabı bağışlayır. Elə o vaxtdan oradan oxuduqları ilə el-obasında mütəmadi yayılan kütləvi xəstəliklərə də çarə qılmağa çalışan Həmidə xanımın əl çantası ənlik-kirşandan çox dava-dərmanla dolu olarmış.

Həmsöhbətim deyir ki, Həmidə xanım həmin peyvəndləri öz vəsaiti ilə alır və peyvəndləməni şəxsən özü aparırdı: "Bilirsiniz ki, onun atasının böyük malikanəsi, toxuculuq fabriki olub və Əhməd bəyin vəfatı ilə bütün işlər dayanıb. Mirzə ilə evlilikdən sonra atasının fabrikini işə salan, Qarabağda qız məktəbi açan Həmidə Cavanşir Mirzə Cəlilə daim dəstək olub. Ümumiyyətlə, xalqa xidmət, qarşılıqlı dəstək və sayğı bu ailə üçün həmişə ön planda durub. Onların məktublarını oxuduqca, xüsusən Mirzənin Ağcabədiyə – Həmidə xanıma yolladığı yazıları gözdən keçirdikcə onun duyğularına, səbrinə, sevgisinə heyran oluram. Həmidə xanımın ötkəmliyi, ağayanalığı Mirzə Cəlili heç vaxt bezdirməyib. Həmidə xanım məişət yox, xalq, millət üçün çalışan ziyalı olub. Ondan evinə, mətbəxinə sığmağı yəqin ki, heç Mirzə də tələb etməyib. Bu mənada Həmidə xanımı da anlamaq olar. Evin bir otağının redaksiya olması və bütün günü insanlarla aşıb-daşması müəyyən məqamlarda onu da narahat edib və yəqin ki, buna görə evin ən uzaq nöqtəsində özünə otaq ayırıb".

Ləyaqətlə yaşayıb səksən iki il ömür sürən Həmidə Cavanşir-Məmmədquluzadə 6 fevral 1955-ci ildə vəfat edib. Ömrünün sonunadək Mirzə Cəlil irsinə və amallarına sadiq olub.

...İki ömrün anlarına şahidlik edən evə daxil olarkən öz-özümə verdiyim sualın cavabını oranı tərk edəndə özüm üçün ümumən hasil etmişdim. Böyük idealları olan və bütün duyğularının başında xəlqi məhəbbət dayanan insanlar xoşbəxt insanlardır və xatirələri daim yaşamalıdır. Axı, onlar öz ömürlərini məhz bu amal üçün sərf ediblər.

**Həmidə Nizamiqızı**

# "Hüseyn Cavid" biblioqrafiyası hazırlanıb




Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, filosof-şair, böyük dramaturq Hüseyn Cavid (1882-1941) ədəbiyyat tarixində öncül yerlərdən birini tutur. Azərbaycan ədəbiyyatının inkişafında müstəsna xidmətləri olan Hüseyn Cavid heç kimə bənzəməyən, orijinal bir yaradıcılıq yolu keçib və özündən sonra ölməz əsərlər qoyub gedən söz ustasıdır. Bütün yaradıcılığı boyu xeyirlə şəri qarşılaşdıran və ümumbəşəri dəyərlər işığında xeyirin qələbəsinə öz sənətkar töhfəsini verən ədibin 140 illiyi münasibətilə Azərbaycan Milli Kitabxanası tərəfindən biblioqrafiya hazırlanıb.

"Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından nəşr olunan biblioqrafiya 1904-2022-ci illəri əhatə edir.

Vəsaitdə ədibin kitabları, dərsliklərdə, məcmuələrdə, dövri mətbuatda çap olunan əsərləri, həyat və yaradıcılığını əks etdirən ədəbiyyat əhatə olunub. Həmçinin xarici dillərdə və dünyanın aparıcı kitabxanalarında mühafizə olunan əsərləri və haqqında ədəbiyyatın biblioqrafik təsvirləri də vəsaitə daxil edilib.

Biblioqrafik göstəricinin elektron variantı ilə bu linkdə tanış olmaq olar: http://anl.az/down/H.Cavid.bib.pdf

# "Azərbaycanda çay mədəniyyəti"

AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu Tarixi etnoqrafiya şöbəsinin müdiri tarix elmləri doktoru, dosent İlhamə Məmmədovanın "Azərbaycanda çay mədəniyyəti" kitabı çapdan çıxıb.

İnstitutdan bildirilib ki, monoqrafiya Azərbaycanda çay mədəniyyətinin tarixi-etnoqrafik tədqiqinə həsr edilir. Azərbaycanda çay süfrəsinin etnoqrafik xüsusiyyətləri, həmçinin ənənəvi içkilər və şirniyyat növləri haqqında məlumat verilir, çayın ölkəmizdə və dünyada yayılması, müxtəlif xalqların çay mədəniyyəti izah olunur. Azərbaycan etnoqrafiya elmində ilk dəfə Səfəvilər dövründə qəhvəxana və çayxanaların yaranması haqqında məlumat verilir. Tarixi mənbələr, ədəbiyyat və çöl-etnoqrafik materialları əsasında qələmə alınan əsər Azərbaycan xalqının mədəni irsinin öyrənilməsinə töhfədir.

# Cümhuriyyət Parlamentinin üzvü olmuş fədakar maarifçi

Ömrünü maarif və mədəniyyətin inkişafına həsr edənlər xalqının gələcəyini düşünən insanlardır. Çünki onların bu missiyası həmin vaxt deyil, illər sonra bəhrəsini verir. Böyük bir elin, hətta bütün xalqın yolunu aydınladır. Muxtar Əfəndizadə də belə ziyalılarımızdan olub.

Muxtar İsmayıl oğlu Əfəndizadə (Muxtar Əfəndi) 1880-ci ilin yanvar ayında Ağdaş rayonunun Şəmsabad kəndində ziyalı ailədə dünyaya göz açır. Altı yaşında atası vəfat edir. Anası oğlunun təlim-tərbiyəsi ilə ciddi məşğul olur. O, mədrəsədə təhsil alır. Maarifçilik yolunu seçən Muxtar Əfəndizadə 1904-1905-ci illərdə Qubada "Üsuli-cədid" məktəbi açır. Bir il sonra maarifçilik fəaliyyətini Ağdaşda davam etdirməyə başlayır. Burada "Yaşlılar üçün kurs", "Nəşri-maarif", "Darülirfan" məktəbi, qiraətxana, teatr, "Səadət" qız məktəbi, "Rus-tatar məktəbi" layihələri üzərində çalışır və istəyinə nail olur.

Görkəmli maarifçinin təşəbbüsü və iştirakı ilə yaradılan qiraətxana isə böyük əks-səda doğurur. Özü bu barədə yazır: "Qiraətxana açmaq haqqında fikrimi Azərbaycan cəmiyyət iclaslarının birində üzvlərə danışdım. Fikrim çox razılıqla qarşılandı və açılmasına qərar verildi. Bir müddət sonra ərəbcə Misirdən, farsca İrandan, türkcə İstanbuldan, Krımdan, Bolqarıstandan, tatarca Orenburqdan, Kazandan və rusca Rusiyadan onlarca qəzet və məcmuələr aldıq. Bu da qiraətxananı zənginləşməsini təmin etdi". O zaman "Baku" qəzetində belə bir informasiya dərc olunmuşdu:



"1923-cü ildə kitabların sayına görə Ağdaş rayon qiraətxanası Bakıdan sonra ikinci yeri tutur".

Eyni zamanda xeyriyyəçilik fəaliyyəti ilə də məşğul olan M.Əfəndizadə Ağdaşda 1908-1909-cu illərdə maddi cəhətdən əziyyət çəkən uşaqlar üçün bir neçə bölgədə "Kimsəsiz uşaqlar evi" açmağa nail olur. Maarifpərvər ziyalı kimsəsiz uşaqları bu ocağa yığır və onlara atalıq qayğısı göstərir. Bu xeyirxah işə bir neçə imkanlı şəxsi də cəlb edir. Xeyriyyəçiliyi haqqında Hacı Zeynalabdin Tağıyev də xəbər tutur və onun fəaliyyətini alqışlayır. Hətta Muxtar Əfəndiyə 100 qızıl pul da göndərir...

Araşdırmalarda qeyd edilir ki, Muxtar Əfəndinin 1906-cı ildə açdığı "Darülirfan" oğlan məktəbi onun maarifçilik yolunda diqqətəlayiq xidmətlərindən hesab olunur. Dərslərin yalnız Azərbaycan dilində aparıldığı bu beşillik maarif ocağında dünyəvi elmlər də tədris olunub.

Məktəbdə onunla bərabər, dövrün görkəmli maarifçiləri Şərif Əfəndiyev, Qori Müəllimlər Seminariyasının məzunu Səməd Muradov, Məhəmməd bəy Əfəndiyev və Əhməd Əfəndi də dərs deyib.

Onun Azərbaycan mədəniyyəti və maarifçiliyinin inkişafındakı əvəzsiz xidmətlərindən biri də 1907-ci ildə ucqar bir rayonda teatr yaratması olub. O, Ağdaşa tərcüməçi işləməyə gələn tanınmış bəstəkar Zülfüqar Hacıbəyovla görüşür və bu görüşün nəticəsi olaraq teatr yaratmağa qərar verirlər. Kollektiv 1908-ci ildə ilk olaraq Rəşid bəy Əfəndiyevin "Qan ocağı" pyesini nümayiş etdirir. Və bu tamaşada ilk dəfə olaraq iki qadın da səhnəyə çıxır. Bu xanımlar artist Almaxanım və görkəmli yazıçı Maqsud Şeyxzadənin anası Fatma Şeyxzadə idi...

Muxtar Əfəndi yenə də şəxsi təşəbbüsü ilə 1909-cu ildə "Səadət" qız məktəbinin açılmasına müvəffəq olur. Bu, Ağdaşın həyatında çox böyük mədəni hadisə kimi qəbul olunur. Məktəbə "Bakı qızlar məktəbi"ni bitirmiş Hədiyyə Məmmədova müdir təyin edilir. 1920-ci ilə qədər fəaliyyət göstərən təhsil ocağında qiraət, hesab, hesabi-zehni və s. fənlər tədris olunur.

Mədəni-maarif sahəsindəki fədakar xidmətləri olan Muxtar Əfəndi Azərbaycan Cümhuriyyəti Parlamentinə üzv də seçilib. 1919-cu ildən parlamentdə "Əhrar" ("Azadlıq") partiyasının üzvü kimi fəaliyyət göstərib. 1920-ci ildə ölkəmizin Rusiya tərəfindən işğalı nəticəsində Cümhuriyyət süquta uğrayır. O da siyasətdən uzaqlaşır. Ancaq bolşeviklər onu rahat buraxmırlar. Maarif fədaisi həbs edilərək sürgünə göndərilir. Bir neçə il çəkən sürgündən sonra, 1930-cu ildə maarif nazirinin təklifi ilə Gürcüstana göndərilir. Tiflisin ali tədris müəssisələrində 1932-ci ilə qədər dil və ədəbiyyatdan dərs deyir. Eyni zamanda Tiflisdə nəşr olunan "Yeni kənd" qəzetinin redaktoru və "Dan ulduzu" məcmuəsinin korrektoru kimi fəaliyyət göstərir. Səhhətində yaranan problemlə əlaqədar Bakıya dönür. Maarif nazirinin əmri ilə Baş mətbuat müdirliyində və Tarix İnstitutunda tərcüməçilik işi ilə məşğul olur. 1944-cü ildə Azərbaycan Dövlət Universitetinə (BDU) dəvət olunan ziyalı uzun müddət Şərq dilləri fakültəsində dərs deyir. 1947-ci ildə professor İbadulla Qarayevin tapşırığı ilə "Ərəb dilinin açarı" adlı dərslik yazır. Ali məktəblər üçün yazılmış bu dərslik keçmiş SSRİ miqyasında diqqətəlayiq iş kimi qiymətləndirilir. O zaman dünya şöhrətli ərəb dili mütəxəssisi akademik İqnati Kraçkovski bu dərsliyə yüksək qiymət verir. Böyük maarifçi eyni zamanda orta məktəblərdə ərəb dilinin tədrisi ilə bağlı bir neçə dərslik də hazırlayır.

O, İsgəndər Münşinin "Tarixi-aləm-arayi-Abbasi", Sədi Şirazinin "Gülüstan" (fars dilindən), İbn əl-Əsrin "Əl-Kamil fit-tarix" (ərəb dilindən) əsərlərini Azərbaycan dilinə tərcümə edir.

Böyük vətənpərvər, yorulmaz maarifçi Muxtar Əfəndi 19 oktyabr 1975-ci ildə dünyasını dəyişib.

**Savalan Fərəcov**

# Yaratdığı rollarla hər zaman xatırlanacaq

## Ələsgər İbrahimov qısa ömrünü kinoya həsr etmişdi

Kino istedad və bacarıqla yanaşı, yaraşıqlı xarici görünüşü, xarakterləri də sevir. Bu kimi keyfiyyətlərə malik olanları daha tez tanıdır. Azərbaycan kinosunda yaddaqalan obrazlarına görə seçilən Ələsgər İbrahimov (30.1.1943 – 10.3.1983) da kinonun məşhurlaşdırdığı aktyorlarımızdandır. Onun adı çəkiləndə göz önündə xarakterik rolları canlanır. Yaradıcılıq qismətinə düşən rollarının həyat mövqeyini dəqiq çatdıran aktyor rejissorların ideyalarını realist yaradıcılığı fonunda təsdiqlədiyinə, çoxsaylı tamaşaçı rəğbəti qazandığına görə yoxluğunda belə adı rəğbətlə xatırlanır, xatirəsi hörmətlə anılır. Yaddaşlarda iz salan aktyoru anadan olmasının 80-ci ildönümündə ehtiramla yad edirik.



Ən böyük tərbiyəçi çətinlikdir, deyirlər. Ələsgər İbrahimovun kinoya gəlişini, ardıcıl uğurunu da sanki doğulduqdan boyuna biçilmiş çətinliklərlə əlaqələndirmək olar. Uşaqlıq və yeniyetməlik dövrü ağır illərə təsadüf edən gələcəyin məşhur aktyoru orta məktəbi bitirdikdən sonra Dövlət Neft İnstitutunda (indiki ADNSU) təhsil alıb. Maddi çətinlikləri olan ailəni dolandırmaqdan ötrü müxtəlif yerlərdə çalışıb. Kinorejissor Arif Babayevlə tanışlığından sonra isə həyatını bütünlüklə kinoya bağlayıb. Kinostudiyada mühəndis işləyib, paralel olaraq filmlərdə çəkilib. Görkəmli rejissor Adil İsgəndərovun kinostudiyanın nəzdində açdığı kinoaktyor kursunda təhsil alması isə onun kino fəaliyyətinin püxtələşməsinə səbəb olub.

Epizod rolları ilə belə yaddaşlarda qalan aktyor Azərbaycan kinosu üçün bir tapıntı idi desək, yanılmarıq. Debüt rolu rejissor Rüfət Şabanovun quruluş verdiyi "Liftçi qız" (1966) kinonovellasında (çimərlikdəki gənc) olub. Bundan sonra Arif Babayevin quruluş verdiyi "İnsan məskən salır" filmində Ramiz Ağayev obrazını yaradıb. Ekran qəhrəmanının fərdi xüsusiyyətlərini, bəzən çılğın, bəzən ciddi, mərd, qürurlu, zəhmətkeş cəhətlərini ustalıqla canlandırıb. Obrazın daxili aləmini, ətraf mühitə, həmkarlarına olan münasibətini orijinal üslubda, dəqiq ştrixlərlə göstərib.



Ramiz Moskvada ali təhsilini yarımçıq qoyaraq Neft Daşlarında işləməyə gəlib. Bu istəyini dostu ilə dialoqunda "anladım ki, elmin Ramiz Ağayevə ehtiyacı yoxdur" deyərək izah edir. Neft mühəndisi kimi yeni təyin olunduğu briqada üzvləri isə onu qəbul etmək və dənizdə həlak olan dostları Cavadın əvəzləyicisi kimi görmək istəmirlər. Çətinliklərdən qorxmazlığı, əzmkarlığı Ramizin briqada üzvlərinin rəğbətini qazanmasına səbəb olur, qərarının doğruluğunu təsdiqləyir.

Realist yaradıcılığı fonunda obrazın fərdi cəhətlərini, qəliz xüsusiyyətlərini, həyat amalını dəqiqliklə çatdıran aktyor personajın düşüncə və psixologiyasını xarakter səviyyəsində təqdim edib. Məhz bu mənada yaradıcılıq artistizmdən əlavə intuitiv yanaşma, psixoloji hazırlıq da tələb edir. Ələsgər İbrahimovun şəxsi keyfiyyətlərindən doğan müəyyən fərqli cəhətləri də rolun xarakteri ilə üst-üstə düşməsinə, personajın inandırıcı alınmasına zəmin yaradıb.

Xalq artisti, kinorejissor **Əbdül Mahmudovun** sənət dostu haqqında fikirləri yerinə düşür: "Ələsgər İbrahimov ziyalı, mədəni insan idi. Adil İsgəndərovun açdığı kino kursunda oxuyurdu. Adil müəllimin ona böyük hörməti vardı. Həmin illərdə mən də həmin kursda dərs deyirdim. Ələsgərlə bir kursda Fuad Poladov, Almaz Əsgərova və digər tanınmışlar oxuyurdu. O, Ömər Xəyyamın şeirlərini, qəzəllərini rus dilində əzbər bilirdi, hərdən bizə də söyləyirdi. Arif Babayev onu kinoya gətirməkdə yanılmamışdı. Kinoya uyğun siması, fakturası vardı, həm də kino ilə nəfəs alırdı. Buna görə də "İnsan məskən salır" filmindən sonra rejissorların diqqətini cəlb etdi, başqa filmlərə də dəvət aldı.

Kinostudiyada böyük bir laboratoriya vardı. Ələsgər orda müdir işləyirdi. Sadə, mehriban insan idi. Kinostudiyada kimdən soruşsanız – işıqçıdan fəhləyə, qrim ustasından rejissora qədər – onun haqqında hamı yaxşı danışacaq. Bir sözlə, kinoya lazımlı adam idi...".

Göründüyü kimi, bu sənətdə istedad, xarici görünüşlə bərabər daxili zənginlik, mənəvi keyfiyyətlər də çox önəmlidir. Ələsgər İbrahimovu tamaşaçılara sevdirən mühüm səbəblərdən biri də özünəməxsus mimika və jestlərlə personajların daxili aləmini, istək və düşüncələrini məharətlə çatdıra bilməsi idi. Aktyor bu cür oyunla personajların reallığına, qəbul olunaraq sevilməsinə səbəb yaradırdı. Onun ifasında ovçu ("Bizi dağlarda axtarın"), Kamil ("Torpaq. Dəniz. Od. Səma"), bolşevik ("Ömrün ilk saatı"), kapitan Cabbarov ("Arxadan vurulan zərbə"), Əlimərdan ("Dvorjakın melodiyası") kimi personajlar da orijinal, dolğun ifada ekran hadisələrinin məzmununu tamamlayır, mahiyyətini çatdırır.

"Yeddi oğul istərəm..." filmindəki Zalımoğlu obrazı da digər personajlar qədər diqqət çəkir, filmin aparıcı qüvvəsi kimi qəbul edilir. Kiçikplanlı rolun filmin aparıcı qüvvəsinə çevrilməsinə şərait yaradan isə aktyorun rola fərdi münasibəti, yanaşma tərzidir.

Ötən əsrin inqilabi-tarixi hadisələrindən bəhs edən filmdə Zalımoğlunun daim narahat, düşüncəli davranışı, məntiqli sualları tamaşaçı diqqətini hadisələrin məğzinə yönəldir. Siyasi-ideoloji mübarizədə insanların bir-birinin qanına bais olması, qardaş qanının (vətəndaş müharibəsi) nahaqdan axıdılması vurğulanır. Bu kontekstdə Zalımoğlu kimi gənclərin puç olmuş həyat hekayəsi məntiqli nüanslarla şərh edilir, filmin ümumi ideyası ətraflı şəkildə təsdiqini tapır.

Ələsgər İbrahimovun realist yaradıcılığı ilə yanaşı romantik aktyor məktəbinə aid xüsusiyyətləri kinorejissor Nazim Abbasın quruluş verdiyi iki filmdə təsdiqini tapır. İstər İkinci Dünya müharibəsi illərində yaralı azərbaycanlı əsgərin başına gələn hadisələr ("Dvorjakın melodiyası"), istərsə də Daşkəsən dağlarında geoloq Leyla ilə təsadüfən rastlaşan ovçunun qısa həyat hekayəsi ("Bizi dağlarda axtarın") aktyorun tərəf-müqabilləri ilə olan yaradıcılıq həmrəyliyi, doğru mizanlanmış təqdimatı fonunda bitkin fikir və mesaj olaraq qəbul edilir, izlənilir. Hər iki filmdəki azsözlü personajın xarakterik cizgiləri, fərdi cəhətləri mövcud vəziyyətə uyğunlaşmış şəkildə, səmimi ifada təqdim edilir.

Məhz bu mənada aktyorun rejissorlarla yaradıcılıq dostluğunun sübutu olan rolları kinoya daxilən bağlılığını bir daha təsdiqləyir.

Əməkdar mədəniyyət işçisi, kinorejissor **Akif Rüstəmov** onu belə xatırlayır: "Ələsgərin kinoya böyük məhəbbəti vardı. Sadə, səmimi və sakit adam idi. Həmişə səliqəli geyinirdi. Çox vaxt da gülümsəyirdi. Yaxşı futbol oynamağı da vardı. Yadımdadı, kinostudiyada hər şöbənin öz komandası var idi. Həvəskar komandalar olsa da, oyunçular yaxşı oynayırdılar. Hətta kinostudiyanın çempionatı da olurdu, birincilik qazanırdı. Həmkarlar ittifaqı qalib komandaya kubok və pul mükafatı verirdi. Ələsgər də futbolu sevirdi, yaxşı da oynayırdı. Kollektivin ürəyi idi. Onun kiminləsə mübahisə etdiyini heç vaxt görmədim. Yaxşı xüsusiyyəti çox idi deyə hamı xətrini çox istəyirdi...".

Ələsgər İbrahimovun müsbət fərdi keyfiyyətləri və işini sevməsi onu həmkarlarının, tamaşaçıların sevimlisinə çevirmişdi. Kinostudiyanın sevimli sakininin bəxti bir də onda gətirir ki, filmlərdə canlandırdığı ekran personajlarını Həsənağa Turabov (Ramiz), Kamal Xudaverdiyev (Cabbarov), Həsən Əbluc (Kamil), Əliabbas Qədirov (bolşevik) kimi görkəmli sənətkarlar səsləndirib, aktyorun sevgi ilə yaratdığı rolları ikiqat sevdiriblər.

Kinoda az çəkilməsi təəssüf doğuran Ələsgər İbrahimov, digər filmlərdə rol almasaydı belə, təkcə Ramiz Ağayev obrazı ilə yaddaşlarda yaşayacaq, kinomuzun unudulmaz siması kimi xatırlanacaqdı. Qısa ömrünü kinoya həsr etmiş aktyora 8 filmdə irili-xırdalı rol verən rejissorların onun bacarığından zamanında yararlandıqları, kinoda qalmasına kömək, dayaq olduqları təsdiqini tapır.

Kino istedadları sevir, yaddaşlara yazır. Təsadüfi gəlişləri sevmədiyi kimi, vaxtsız itkilərlə də barışmır. Elə buna görə də, sağlığında olduğu kimi, yoxluğunda da sevimli aktyorun nakam ömründən qalan uğurunun izlərini nəsillərə hörmətlə tanıtmaqdadır, xatırlatmaqdadır...

**Şəhla Əmirli**
**kinoşünas**

# Bakı Dövlət Sirki yaz mövsümünə yeni proqramla başlayacaq




Xəbər verdiyimiz kimi, Bakı Dövlət Sirki ilin bütün fəsillərində fəaliyyət göstərməkdə davam edir.

Martın 1-dən sirkdə "Dziva" adlı beynəlxalq sirk proqramının nümayişi başlanacaq. Proqramda şir və pələnglərin şousu əsas yer tutacaq. Dünyanın tanınmış klounlarının da çıxışı proqramı unudulmaz edəcək. Bundan başqa, musiqili rəqs şouları, hava gimnastlarının qeyri-adi tryukları, balet şousu, transformasiya illüziyası kimi nömrələr də göstəriləcək. Proqramların təşkilatçısı azərbaycanlı sirk ustası Allahverdi İsrafilovdur.

"Dziva" sirk proqramı aprelin 30-dək davam edəcək.

# Həvəskar rəssamların sərgisi

Mədəniyyət Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqı, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə açılacaq "Hisslər və rəsmlər" adlı sərgiyə həvəskar rəssamların əsərləri qəbul olunur.




Xətai Sənət Mərkəzindən bildirilib ki, müəlliflər əsərlərin mövzusu, ölçüsü və texnikası baxımından sərbəstdirlər. Sərgiyə əsərlərin fotoları ilə yanaşı ad, soyad, əsərin adı, əsərin ölçüsü, texnikası və əlaqə nömrəsinin hisslerim2023@gmail.com elektron adresinə göndərilməsi vacibdir.

Bir müəllif ən çox 3 əsər göndərə bilər. Son müraciət tarixi 25 fevraldır. Əl işi seçilmiş müəlliflərin siyahısı Xətai Sənət Mərkəzinin sosial media hesablarında yayımlanacaq və onlara sertifikat veriləcək. Tamaşaçıların seçdiyi ən yaxşı rəsmin müəllifi də təltif olunacaq.

## Xatirə təqvimi — 28–31 yanvar

### Azərbaycan

**28 yanvar 1908** – Bəstəkar, Azərbaycanın Əməkdar incəsənət xadimi Boris İsaakoviç Zeydman (1908-1981) Peterburqda anadan olub. Ü.Hacıbəylinin dəvəti ilə Bakıya gəlib, Dövlət Konservatoriyasında dərs deyib (1940-60). Bakıda "Maskarad»", "Ağıldan bəla" operalarını, "Qızıl açar" baletini yazıb.

**28 yanvar 1925** – Şair, dramaturq, tərcüməçi, teatrşünas Adil Qafar oğlu Babayev (1925 – 19.8.1977) Naxçıvanda anadan olub. "Dağlar qızı", "Qız görüşə tələsir" və s. pyeslərin müəllifidir.

**28 yanvar 1980** – Azərbaycanda teleradio diktorluq məktəbinin banilərindən biri, diktorlar arasında respublikanın ilk Əməkdar artisti Aydın Çingiz oğlu Qaradağlı (20.8.1929 – 1980) vəfat edib.

**28 yanvar 1985** – SSRİ Xalq artisti, görkəmli teatr rejissoru, pedaqoq, sənətşünaslıq doktoru, professor Mehdi Əsədulla oğlu Məmmədov (22.5.1918 – 1985) vəfat edib. Akademik Opera və Balet, Akademik Milli Dram, Rus Dram teatrlarında baş rejissor işləyib.

**28 yanvar 2015** – Xalq şairi, dramaturq Vaqif Səmədoğlu (Vaqif Səməd oğlu Vəkilov; 5.6.1939 – 2015) vəfat edib. "Bəxt üzüyü", "Yayda qartopu oyunu", "Generalın son əmri" və s. pyeslərin müəllifidir. Milli Məclisin deputatı (2000-2010) olub.

**29 yanvar 1926** – Xalq artisti, sirk ustası, jonqlyor, illüzionist Xosrov Abdulla oğlu Abdullayev (1926 – 31.3.1980) Şamaxıda anadan olub. "Uşaqlığın son gecəsi", "O qızı tapın" və s. filmlərdə çəkilib.

**29 yanvar 1927** – Məşhur balerina, Azərbaycanın və SSRİ-nin Xalq artisti Leyla Məhəd qızı Vəkilova (1927 – 20.2.1999) anadan olub. Opera və Balet Teatrının aparıcı balet artisti olub. 1953-cü ildən Bakı Xoreoqrafiya Məktəbində dərs deyib, tədris ocağına rəhbərlik edib.

**29 yanvar 1938** – Xalq artisti, mahir qoboy ifaçısı Kamil Cəlil oğlu Cəlilov (1938 – 23.2.2022) Bakının Buzovna kəndində doğulub. Niyazi adına simfonik, S.Rüstəmov və Ə.Bakıxanov adına xalq çalğı alətləri, "Dan ulduzu" instrumental ansambllarının solisti olub.

**29 yanvar 2011** – Əməkdar rəssam Ənvər Vahid oğlu Qarayev (18.2.1947 – 2011) vəfat edib. Dekorativ-tətbiqi sənət, xalça, batika, parça üzərində tikmə texnikasının mahir ustası idi.

**29 yanvar 2016** – Xalq artisti, bəstəkar Musa Abdulla oğlu Mirzəyev (26.1.1933 – 2016) vəfat edib. Simfoniya, simfonik orkestr üçün əsərlər, kantata, vokal silsilələri, mahnıların müəllifidir. Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru olub.

**30 yanvar 1920** – Əməkdar incəsənət xadimi, kinooperator Teyyub Mirzəhəsən oğlu Axundov (1920 – 3.12.1991) anadan olub. "Onu bağışlamaq olarmı?", "Sehrli xalat", "Dağlarda döyüş", "Tütək səsi" və s. filmlərin operatorudur.

**30 yanvar 1935** – Əməkdar rəssam Gennadi Demyanoviç Brijatyuk (1935 – 11.6.2008) Gəncə şəhərində anadan olub. Yaradıcılığında gül təsvirləri, Abşeronla bağlı peyzajlar, qadın portretləri daha çox yer tutur.

**30 yanvar 1936** – Əməkdar rəssam Əli Verdiyev (1936 – 8.5.2020) Lənkəranda anadan olub. Portret, mənzərə, natürmort və digər janrlarda əsərlərin, çoxfiqurlu tabloların müəllifidir: "Babəkin savaşı", "Hüseyn Cavid", "Qızıl toy" və s.

**30 yanvar 1936** – Əməkdar elm xadimi, ədəbiyyatşünas Araz Məmməd Arif oğlu Dadaşzadə (1936 – 4.11.1990) anadan olub.

**30 yanvar 1948** – Xalq artisti, tanınmış vokal ifaçısı Elxan Yəhya oğlu Əhədzadə (1948 – 8.10.2010) Bakıda doğulub. Akademik Musiqili Teatrda, Mahnı Teatrında çalışıb.

**30 yanvar 1943** – Tanınmış aktyor Ələsgər Əli oğlu İbrahimov (1943 – 10.3.1983) anadan olub. "İnsan məskən salır", "Yeddi oğul istərəm", "Torpaq. Dəniz. Od. Səma" və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

**31 yanvar 1879** – Satirik şair Səməd Mənsur (Səməd Hacı Əhməd oğlu Kazımov; 1879 – 3.1.1927) Bakının Əmircan kəndində doğulub. "Molla Nəsrəddin", "Şeypur" və s. jurnallarda şeirləri dərc edilib. "Səfa" cəmiyyətinin nəzdindəki teatr üçün pyeslər yazıb, tərcümələr edib.

**31 yanvar 1884** – Görkəmli ictimai-siyasi xadim, yazıçı-publisist Məhəmməd Əmin Hacı Molla Ələkbər oğlu Rəsulzadə (1884 - 6.3.1955) Bakının Novxanı kəndində doğulub. Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) banisidir, Cümhuriyyətin süqutundan sonra Avropada, Türkiyədə Azərbaycan mühacirətinə rəhbərlik edib, jurnal və qəzetlər nəşr etdirib. "Çağdaş Azərbaycan ədəbiyyatı", "Çağdaş Azərbaycan tarixi" və s. əsərlərin müəllifidir. Məzarı Ankaradadır.

**31 yanvar 1903** – Əməkdar rəssam, tanınmış boyakar və qrafik Ələkbər Ələsgər oğlu Rzaquliyev (1903 – 31.1.1974) Bakıda anadan olub. "Köhnə Bakı" silsiləsi , "M.Ə.Sabir", "Çaybecərənlər" və s. linoqravüraların müəllifidir. 30-40-cı illərdə repressiyaya məruz qalıb, həbs və sürgün edilib.

**31 yanvar 1915** – Xalq artisti Vera Karlovna Şirye (1915 – 5.5.2003) Bakıda anadan olub. 1933-cü ildən Azərbaycan Dövlət Rus Dram Teatrının aktrisası olub, "İstiqlal" ordeni (2000) ilə təltif olunub.

**31 yanvar 1918** – Xalq artisti Konstantin Nikolayeviç Bataşov (1918-1991) Tiflisdə doğulub. Akademik Opera və Balet Teatrının balet artisti olub, Bakı Xoreoqrafiya Məktəbində dərs deyib.

**31 yanvar 1924** – Əməkdar incəsənət xadimi, şair Əli Tudə (Əli Əliqulu oğlu Cavadzadə; 1924 – 26.2.1996) Bakıda doğulub. 1940-cı illərdə Cənubi Azərbaycanda azadlıq hərəkatının öncüllərindən olub.

**31 yanvar 1963** – SSRİ Xalq artisti Ələsgər Hacıağa oğlu Ələkbərov (26.3.1910 – 1963) vəfat edib. 1933-cü ildən Akademik Milli Dram Teatrında fəaliyyət göstərib, Filmlərdə ("Fətəli xan", "Böyük dayaq" və s.) unudulmaz obrazlar yaradıb.

### Dünya

**28 yanvar 1912** – Amerika rəssamı, abstrakt ekspressionizmin banisi Pol Cekson Pollak (Paul Jackson Pollock; 1912-1956) anadan olub.

**29 yanvar 1860** – Rus yazıçı-dramaturqu Anton Pavloviç Çexov (1860 – 15.7.1904) anadan olub. "Qağayı", "Albalı bağı", "Vanya dayı", " Üç bacı" pyeslərinin, povest və hekayələrin müəllifidir.

**29 yanvar 1866** – Fransız yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1915) Romen Rollan (Romain Rolland; 1866 – 30.12.1944) anadan olub. Əsərləri: "Jan-Kristof" (10 kitabdan ibarət roman), "Canavarlar", "İdrakın təntənəsi", "Danton" pyesləri və s.

**30 yanvar 1720** – İtalyan rəssam, Venesiya məktəbinin nümayəndəsi Bernardo Belotto (Bernardo Francesco Paolo Ernesto Bellotto; 1720-1780) anadan olub.

**30 yanvar 1923** – Kinorejissor, SSRİ Xalq artisti Leonid Qayday (1923 – 19.11.1993) anadan olub. Populyar sovet kinokomediyalarının ("Qafqaz əsiri", "Brilyant əl", "İvan Vasilyeviç peşəsini dəyişir" və s.) müəllifidir.

**30 yanvar 1928** – Amerika blüz musiqisinin tanınmış simalarından olan müğənni Rut Braun (Ruth Brown; 1928-2006) anadan olub.

**31 yanvar 1797** – Avstriya bəstəkarı Frans Şubert (Franz Peter Schubert; 1797-1828) anadan olub. "Alfonso və Estrella" operası, simfoniya, mahnı və romansların müəllifidir.

**31 yanvar 1921** – Amerika opera müğənnisi, aktyor Mario Lansa (Mario Lanza – əsl adı Alfredo Arnoldo Cocozza; 1921-1959) anadan olub.

**31 yanvar 1924** – Gürcü kinorejissoru, SSRİ Xalq artisti Tengiz Abuladze (1924-1994) anadan olub. Filmləri: "Mən, nənəm, İliko və İllarion", "Arzu ağacı", "Tövbə" və s.

**31 yanvar 1937** – Litva aktyoru, SSRİ Xalq artisti Reqimantas Adomaytis (Regimantas Adomaitis; 1937 – 20.6.2022) anadan olub. Filmləri: "Bu şirin söz – azadlıq", "Həyat gözəldir", "İlğım" və s.

**Hazırladı: V.Orxan**

# Avropa Şurasının mənzil-qərargahında Azərbaycan xalçaları sərgilənir

Yanvarın 25-də Azərbaycan Respublikasının Avropa Şurasına (AŞ) tamhüquqlu üzv edilməsinin 22-ci ildönümü tamam oldu. Bu münasibətlə Strasburqda, AŞ-nin mənzil-qərargahında Azərbaycan xalçalarının sərgisi açılıb. Azərbaycanın mədəni irsinin ən zəngin qollarından biri olan xalça sənətinin və milli xalçaçılıq məktəblərinin Avropada tanıdılması məqsədi daşıyan sərgi ölkəmizin AŞ yanında daimi nümayəndəliyi və "Azərxalça" ASC tərəfindən təşkil edilib.



Avropa Şurası Parlament Assambleyasının qış sessiyası zamanı təşkil olunmuş sərgi fevralın 3-dək açıq olacaq. Sərgidə Azərbaycanın müxtəlif xalçaçılıq məktəblərinin nümunələri təqdim edilir Həmçinin böyük ekran vasitəsilə milli xalçaçılıq sənətindən, eləcə də Azərbaycanın məşhur xalçaçılarından bəhs edən film nümayiş olunur. Həmçinin Azərbaycan xalça sənəti ilə bağlı Heydər Əliyev Fondu tərəfindən nəşr edilmiş kitablar təqdim olunur.

Sərginin açılışında çıxış edən ölkəmizin AŞ yanında daimi nümayəndəsi, səfir Fəxrəddin İsmayılov 2001-ci il yanvarın 25-də Azərbaycanın üçrəngli bayrağının Ümummilli lider Heydər Əliyevin iştirakı ilə təşkilatın mənzil qərargahı qarşısındakı flaqştoka qaldırıldığını xatırladıb. Diplomat qeyd edib ki, Avropanın demokratik millətlər ailəsinə mənsub olan Azərbaycan qitənin multikultural kimliyinə öz töhfələrini verir.

AŞ-nin baş katibi Maria Peyçinoviç Buriç sərgidə nümayiş etdirilən xalçaların bənzərsiz xüsusiyyətlərə məxsus olduğunu, ənənələrə əsaslanan bu sənətin qorunmalı olduğunu bildirib. O, AŞ-nin "müxtəliflikdə birlik" anlayışı ilə mədəniyyət sahəsinə böyük önəm verdiyini söyləyib. Baş katib Azərbaycanın artıq 22 ildir Avropa Şurasına üzv olduğunu və qurumun çoxsaylı konvensiyalarını imzaladığını və ratifikasiya etdiyini bildirib, ölkəmizin mədəniyyətlər və dinlər arasında dialoqda xüsusi rolunu qeyd edib.

Tədbirdə "Azərxalça" ASC-nin rəhbəri Emin Məmmədov 2016-cı ildə Prezident İlham Əliyevin sərəncamı ilə yenidən strukturlaşdırılan qurumun fəaliyyətindən söz açıb. O, xalqımızın zəngin və nadir mədəni irsi olan xalçaçılıq sənəti haqqında danışıb, Qarabağ, Qazax, Naxçıvan, Şirvan məktəblərindən bəhs edib. Xalçaların ərsəyə gəlməsində yerli və xarici rəssamlarla, eləcə də dizaynerlərlə əməkdaşlıqdan bəhs edən E.Məmmədov ənənəvi xalçalara istinadla müasir xalçalar yaradıldığını qeyd edib.

Açılış mərasimində Bakı xalçaçılıq məktəbinə məxsus xalça Avropa Şurasına hədiyyə edilib.

Sərginin açılışına AŞ Katibliyinin əməkdaşları, AŞPA-nın qış sessiyasına gəlmiş müxtəlif ölkələrin parlamentariləri, AŞPA-da və Avropa İnsan Hüquqları Məhkəməsində çalışan həmvətənlərimiz, eləcə də yerli ictimaiyyətin üzvləri qatılıblar.

# Ölkəmizin turizm potensialı 10 beynəlxalq sərgidə tanıdılacaq

Dövlət Turizm Agentliyinin tabeliyində fəaliyyət göstərən Azərbaycan Turizm Bürosu tərəfindən yerli tərəfdaşlarla birgə 2023-cü ilin fevralında Hindistanda "OTM Mumbai" və "SATTE", Türkiyədə "EMITT", İsraildə "IMTM" kimi beynəlxalq sərgilərdə Azərbaycanın turizm potensialının təqdimatı planlaşdırılır.

Bu barədə Dövlət Turizm Agentliyindən bildirilib. Məlumata görə, ölkəmizin turizm imkanları cari ilin martında Almaniyada "ITB Berlin", Rusiyada "MITT", apreldə Qazaxıstanda "KITF", may ayı ərzində isə Birləşmiş Ərəb Əmirliklərində "ATM Dubai", Səudiyyə Ərəbistanında "Riyadh Travel Fair" və Almaniyada "IMEX Frankfurt" kimi beynəlxalq turizm sərgilərində də tanıdılacaq.

Sərgilərdə ölkəmizin müxtəlif turizm məhsulları, o cümlədən işğaldan azad olunmuş ərazilərin turizm imkanları, qastroturizm, sağlamlıq turizmi, şərabçılıq, mədəni, işgüzar turizm, təbiət, haykinq, eləcə də qış turizmi imkanları və dağ-xizək mərkəzləri haqqında ətraflı məlumat veriləcək.

# "Oskar" mübarizəsində hansı filmlər var?

## "Hər şey hər yerdə və dərhal" 11 nominasiyada namizəddir

Xəbər verildiyi kimi, Amerika Kino Akademiyası 2023-cü il "Oskar" mükafatına namizədlərin siyahısını açıqlayıb.



Rejissorlar Den Kvan və Daniel Şaynertin "Hər şey hər yerdə və dərhal" filmi "Oskar" mübarizəsində liderdir. Elmi-fantastik komediya ümumilikdə 11 nominasiya üzrə mükafata namizəddir.

"Ən yaxşı film" nominasiyasına iddialılar arasında Stiven Spilberqin "Fabelmanlar" (2022), Ceyms Kemeronun "Avatar: suyun yolu", Sara Pollinin "Qadınlar danışır", Martin Makdonaxın "İnişerinin ölüm pərisi", Baz Lurmanın "Elvis", Todd Fildin "Tar", Cozef Kosinskinin "Top Qan: Meverik" və Ruben Estlundun "Qəm üçbucağı" filmləri də yer alıb.

"Xarici dildə ən yaxşı film" nominasiyası uğrunda isə "Qərb cəbhəsində yenilik yoxdur" (rejissor Edvard Berger, Erix Maria Remarkın romanı əsasında), "Argentina, 1985" (Santyaqo Mitre), "Sakit adam" (Kolm Bayrid), "Yaxın" (Lukas Dont) və "İa" (Yerji Skolimovski) ekran əsərləri yarışacaq.

95-ci "Oskar" mükafatının qalibləri martın 13-də məlum olacaq.

# Dünyanın çox üzünü görmüş ağaclar



## 80 min yaşı olan var...

Dünyada iqlim dəyişikliyi səbəbindən bir çox ağac növlərinin nəsli kəsilib. Lakin minilliklər ərzində zamanın sınağından, isti-soyuğundan keçib günümüzədək kökü üstə qalmağı bacaran ağaclar da var.

Bir ağacın neçə yaşı olduğunu dəqiq öyrənmək çətindir, çünki bunun üçün bir çox fərqli amillər var. Amma onların gövdəsi, qabığı, kökləri ilə bağlı elmi araşdırmalar təxmini yaşını müəyyən etməyə imkan verir.

Bu yöndə əldə olunan nəticələrə inansaq, dünyanın ən qədim ağacı ABŞ-nin Yuta ştatında, Fişleyk Milli Meşəsində yerləşir. Bu, 80 min yaşı olan Pando ağacıdır.

Jurupa palıdının yaşı 13 min ildir. Bu ağac ABŞ-nin Kaliforniya ştatında, Jurupa dağlarında bitir. Ağacın növü Palmer palıdıdır və 2009-cu ildə aşkar edilib.

2008-ci ildə İsveçin Dalarna əyalətinin Fulufjället dağında aşkar edilmiş Tjikko ağacının isə 9500 yaşı var.

Uelsin Konvey əyalətindəki Llangernyw kəndindəki Digain kilsəsinin həyətində bitən "Llangernyw Yew"in isə 5 min ilə yaxın yaşı olduğu bildirilir.




## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 121 il əvvəl...



**31 yanvar 1902-ci ildə** Şamaxı şəhərində güclü zəlzələ böyük dağıntı və tələfat törədib. Şamaxıda və ətraf kəndlərdə 2 mindən çox sakin həlak olmuş, 20 min nəfərədək əhali evsiz qalmışdı. Şamaxıda 1856, 1861 və 1872-ci illərdə də dağıdıcı zəlzələlər baş verib.

### 103 il əvvəl...

**28 yanvar 1920-ci ildə** Türkiyə Böyük Millət Məclisi (TBMM) Osmanlı dövləti tərəfindən imzalanmış bütün təslimçi müqavilə və sazişlərin, o cümlədən Türkiyə torpaqlarının parçalanmasını ön görən 1919-cu il 10 avqust tarixli Sevr müqaviləsinin qüvvədən düşdüyünü bəyan edib. TBMM-də qəbul olunmuş bəyannamədə Türkiyənin ərazi bütövlüyünün toxunulmazlığı təsbit edilib.

### 90 il əvvəl...

**30 yanvar 1933-cü ildə** Almaniya Reyxstaqında sayca üçüncü fraksiyaya malik olan Nasional-Sosialist Partiyasının lideri Adolf Hitler prezident Petr Qindenburq tərəfindən reyxskansler (baş nazir) təyin olunub. Bu, Hitlerin de-fakto hakimiyyətə gəlişi idi. Bir il sonra Qindenburq vəfat etdi və Hitler qanunla prezidentlik institutunu ləğv etdi. Almaniyada faşist diktaturası bərqərar olundu.

### 89 il əvvəl...

**26 yanvar 1934-cü ildə** Ümumittifaq Kommunist Partiyasının XVII qurultayında ("qaliblərin qurultayı") Stalin tərəfindən antisovet qüvvələrə qarşı total repressiyanın konsepsiyası bəyan edilib. Bu, SSRİ-də kütləvi repressiyaların başlanmasına zəmin idi. Həmin konsepsiyanın ilk qurbanları elə qurultay iştirakçıları oldular. 1937-ci ilədək ümumilikdə XVII qurultayın 1966 iştirakçısından 1108-i güllələnmişdi.

### 81 il əvvəl...

**29 yanvar 1942-ci ildə** SSRİ, Böyük Britaniya və İran arasında faşist Almaniyasına qarşı alyans barədə saziş imzalanıb. Sazişə əsasən, İran ərazisində – Cənubi Azərbaycanda SSRİ-nin hərbi kontingenti yerləşdirildi və müharibənin sonunadək (1945) sovet qoşunları orada qaldı.

### 37 il əvvəl...

**28 yanvar 1986-cı ildə** Birləşmiş Ştatlar kosmik tədqiqatlar sahəsində böyük faciə ilə üzləşib. "Çelencer" kosmik gəmisi (çoxdəfəli istifadə olunan) startdan sonra 73-cü saniyədə partlayıb. Gəmidəki 7 kosmonavtın ölümü



Amerika üçün şok oldu. 2003-cü il fevralın 1-də Amerika ikinci belə şok yaşadı: "Columbia" şattlının partlaması nəticəsində yenə 7 kosmonavt həlak oldu.

### 31 il əvvəl...

**28 yanvar 1992-ci ildə** Qarabağ müharibəsi gedişində erməni silahlı qüvvələri Azərbaycanın dinc əhalisinə ən böyük terror aktlarından birini həyata keçiriblər. Ağdam-Şuşa marşrutu ilə uçan "Mİ-8" sərnişin vertolyotu Xankəndidən atılmış raketlə vurulub. Vertolyotdakı 47 nəfərin hamısı həlak olub. Bu, dünya aviasiya tarixində ən böyük mülki vertolyot qəzalarından sayılır.

**30 yanvar 1992-ci ildə** Praqada Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (1994-cü ildən təşkilat statusu alıb və ATƏT adlanır) üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının toplantısında Azərbaycan və Ermənistan quruma üzv qəbul olunub. ATƏM Dağlıq Qarabağ münaqişəsi ilə məşğul olmaq üçün regiona missiya göndərmək barədə qərar qəbul edib.

**Hazırladı: V.Orxan**

# "Heydər Əliyev İli" çərçivəsində Polşada konsert təşkil olunub

Polşanın Lodz şəhərində Azərbaycanın Əməkdar artisti, məşhur pianoçu İslam Manafov və beynəlxalq müsabiqələr laureatı, dirijor və bəstəkar Abuzər Manafzadənin iştirakı ilə konsert proqramı təşkil edilib.



Konsert Azərbaycanın Polşadakı Səfirliyinin təşəbbüsü, Türkiyənin Polşadakı Səfirliyi və Lodz şəhərindəki fəxri konsulluğunun dəstəyi ilə ərsəyə gəlib.

Qrajina və Keystut Batseviçlər adına Lodz Musiqi Akademiyasının zalında gerçəkləşən konsertdə azərbaycanlı, türk və polyak bəstəkarlarının əsərlərindən nümunələr səsləndirilib. Tədbirdə Lodz şəhərinin ictimaiyyət nümayəndələri, həmçinin azərbaycanlı və türk diasporlarının təmsilçiləri iştirak ediblər.

Səfir Nərgiz Qurbanova 2023-cü ilin Azərbaycanda "Heydər Əliyev İli" elan edildiyini bildirərək konsert proqramının ömrünü doğma vətəninə, xalqına xidmətə həsr etmiş dahi şəxsiyyətin 100 illiyi münasibətilə təşkil olunduğunu söyləyib.

Səfir 2023-cü ildə Azərbaycan operasının 115 illiyinin qeyd olunduğunu da diqqətə çatdırıb, dahi bəstəkar Üzeyir Hacıbəylinin 1908-ci ildə tamaşaya qoyulan "Leyli və Məcnun" operasının ümumilikdə müsəlman Şərqində ilk opera olduğunu vurğulayıb.

Konsert proqramı barədə Polşanın TVP 3 kanalında reportaj yayımlanıb.

# Odessa şəhəri "Təhlükədə olan Dünya İrsi Siyahısı"na daxil edilib

Ukraynanın Odessa şəhəri UNESCO-nun "Təhlükədə olan Dünya İrsi Siyahısı"na daxil edilib.



Bu barədə yanvarın 25-də UNESCO-nun Dünya İrs Komitəsinin 18-ci (növbədənkənar) sessiyasında qərar qəbul edilib. Sessiyada Ukraynanın təqdim etdiyi "Odessa liman şəhərinin tarixi mərkəzi" dosyesinin sözügedən siyahıya salınması dəstəklənib.

"Bundan sonra dəniz kənarındakı mirvarimizi Rusiyanın Ukraynaya qarşı dağıdıcı təcavüzündən qorumaq üçün UNESCO-nun əlavə mühafizəsini alacağıq. Bu mühüm qərardan əvvəl Ukrayna Xarici İşlər Nazirliyi, UNESCO üzrə Ukrayna Milli Komissiyası, Ukrayna Mədəniyyət və İnformasiya Siyasəti Nazirliyi, Odessa Şəhər Şurası uzun və əziyyətli iş görüb", – deyə Ukrayna xarici işlər nazirinin birinci müavini Emine Caparova bildirib.

Nazir müavini bu dosyenin təbliğində və Ukrayna mədəni irsinin qorunmasına dəstək verən tərəfdaşlara ölkəsi adından təşəkkür edib.

# Müharibə Ukraynada 5 milyondan çox uşağı təhsilindən uzaq salıb

Ukraynadakı müharibə səbəbindən 5 milyondan çox uşaq təhsilini yarımçıq qoymaq məcburiyyətində qalıb. Valideynlər mümkün təhlükəni nəzərə alaraq, övladlarını məktəbə göndərməkdən çəkinir. Elektrik enerjisinin kəsilməsi isə onlayn təhsili mümkünsüz edir.



Bu barədə məlumat BMT Uşaq Fondu – UNICEF-in Avropa və Mərkəzi Asiya regionu üzrə nümayəndəliyinin "Twitter" səhifəsində paylaşılıb. Məlumatda bildirilir ki, müharibə üzündən Ukraynanı tərk etməyə məcbur olan ailələrdə də vəziyyət ürəkaçan deyil. Hər üç qaçqın uşaqdan ikisi onları qəbul edən ölkələrdə dərslərə cəlb olunmur.

Rusiyanın hücumları nəticəsində Ukraynada minlərlə təhsil müəssisəsi dağıdılıb və ya zərər görüb. UNICEF mülki obyektlərə, o cümlədən enerji infrastrukturuna zərbələri dayandırmağa çağırıb.

"Mədəniyyət" qəzetinin kollektivi Azərbaycan Dövlət Akademik Musiqili Teatrının mətbuat katibi Fəridə Aslanovaya anası

**Səkinə Abbasovanın**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5058. **Sifariş:** 245
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641